**Xalqın sosial rifahı Prezidentin prioritet siyasətidir**



Bax 4

**Hikmət Hacıyev: "AŞPA məruzəçisi Azərbaycanla hədə və təhdidlə danışa bilməz"**



Bax 5

**"Ordumuzda keyfiyyət dəyişiklikləri göz qabağındadır və qürur hissi doğurur"**



Bax 8



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

**QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!**

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 054 (6019) 20 mart 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir"



Bax 2

*Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki*

Bax 5



## Leyla Əliyevanın dəstəyi ilə azərbaycanlı tələbələr Rusiyadan vətənə gətiriliblər

Koronavirus (COVİD-19) infeksiyasının dünyada pandemiya halını aldığı və ölkələrin bununla bağlı bir sıra məhdudlaşdırıcı tədbirlər gördüyü, o cümlədən təhsil müəssisələrində tədrisin dayandırıldığı məlumdur. Bu xüsusda, Rusiyanın müxtəlif ali təhsil müəssisələrinin tələbə yataqxanalarının karantinə bağlanması ilə əlaqədar...

## Qədim tarixi köklərimizə söykənən NOVRUZ bayramı

*Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamətlərindəndir. Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasəti, islami dəyərlərə yeni prizmadan baxış kimi meyilləri ictimai düşüncənin...*



Bax 12

## Qənirə Paşayeva: "Azərbaycan Prezidentinin islahatlarının məqsədi vətəndaş məmnunluğunun təmin edilməsidir"



Azərbaycan Prezidenti İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı nitqində hər birimizin qarşısına mühüm vəzifələr qoydu və bizi işimizdə daha məsuliyyətli olmağa çağırdı. Dövlətimizin başçısı qanunvericilikdə təkmilləşdirmə aparılmasının...

Bax 5

## Ermənistanda koronavirusla bağlı KİV-lərə müddətsiz məhdudiyyətlər qoyuldu

*Ermənistanda "COVID-19" koronavirus infeksiyasının yoluxma hallarının sürətlə artması ölkə daxilində ciddi çaxnaşmaya və panikaya səbəb olub. Vəziyyət nəzarətdən çıxmaqla yanaşı, hökumət növbəti atacağı addımlarının nədən ibarət olacağını bilmir, eləcə də ictimaiyyətin belə bir vəziyyətdə idarə olunması da problemlər yaradır.*

Bax 11



Коллаж «Вестник Кавказа»

## Ronaldonun xanımı karantinə məhəl qoymadı



*"Yuventus"un ulduz futbolçusu Kriştianu Ronaldonun xanımı Corcina Rodriges koronavirusla bağlı elan edilmiş karantin qaydalarına riayət etməyib. "La Gazetta Della Sport" xəbər verir ki...*

Bax 16

**"Lider ən kritik vaxtlarda öz vətəndaşının yanında"**



Bax 7

**Prezidentin sərəncamı yeni sosial qayğı nümunəsidir**



Bax 7

**Azərbaycanda daha 10 nəfərdə koronavirus infeksiyası aşkarlandı**



Bax 5

# "Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir"

*Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki*



***-Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram. Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir. Əsrlərboyu Azərbaycan xalqı bu gözəl bayramı qeyd edir.***

Bu il koronavirusa görə kütləvi tədbirlərin keçirilməsi mümkün deyil. Əminəm ki, Azərbaycan xalqı bu vəziyyəti yaxşı anlayır. Azərbaycan dövləti tərəfindən görülən bütün tədbirlər xalqın sağlamlığını, ölkəmizin təhlükəsizliyini təmin etmək üçündür. Ona görə xahiş edirəm ki, hər bir vətəndaş öz məsuliyyətini dərk etsin və yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Yaşlı nəslin nümayəndələrinə Azərbaycan cəmiyyətində həmişə böyük hörmət göstərilir. Mən bu mövzu ilə bağlı fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişdim və bir daha demək istəyirəm ki, bu, bizim cəmiyyətimizin əsas sütunlarından biridir. Bizim ənənələrimiz, milli dəyərlərimiz, yaşlı nəslin nümayəndələrinə hörmət və diqqət milli xüsusiyyətimizdir və biz bu dəyərləri bundan sonra da qorumalıyıq. Ancaq indiki şəraitdə yaşlı nəslin nümayəndələrinə xüsusi diqqət göstərilməlidir. Onlara hörmət dildə, sözdə yox, əməldə göstərilməlidir. Çünki bu xəstəliklə bağlı ən ağır fəsadlar məhz yaşlı nəslin nümayəndələrində müşahidə olunur. Əminəm ki, biz dünyanı bürümüş, pandemiya halına çevrilmiş bu xəstəliyə qarşı birlikdə mübarizə aparacağıq və bu mübarizə öz nəticəsini verəcəkdir.

İlin əvvəlindən görülmüş işlər ölkəmizin uğurlu inkişafını bir daha təsdiqləyir, Azərbaycan müasirləşir, yeniləşir. Azərbaycanda aparılan islahatlar demək olar ki, bütün sahələri əhatə edir. 2019-cu ildə aparılan islahatlar iqtisadi sahədə böyük dəyişikliklərə səbəb oldu. Məhz şəffaflıq prinsiplərinin tətbiqi nəticəsində dövlət büdcəsinə 1 milyard manatdan çox vəsait daxil edildi və bu vəsait son qəpiyinə qədər insanların sosial problemlərinin həllinə istiqamətləndirildi. Bildiyiniz kimi, keçən il Azərbaycanın 4,2 milyon vətəndaşı dövlət tərəfindən görülmüş tədbirlər nəticəsində öz maddi vəziyyətini yaxşılaşdırdı, maaşlar, pensiyalar, sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Bu, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir və bizim bütün iqtisadi imkanlarımızın əsas istiqaməti vətəndaşların sosial təminatıdır. Bu istiqamətdə bundan sonra da işlər aparılacaq. 2020-ci ilin ilk iki ayı onu göstərir ki, bu istiqamətdə əlavə tədbirlərin görülməsi mümkün olacaqdır.

İlin əvvəlindən ölkəmizdə proseslər müsbət istiqamətdə gedir, Azərbaycanda sabitlik, təhlükəsizlik təmin edilir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir, vəhdətidir. Bu birlik özünü bir daha parlament seçkilərində göstərmişdir. Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisədir. Parlament seçkiləri ölkəmizdə aparılan siyasətin xalq tərəfindən yüksək qiymətləndirildiyini bir daha ifadə etdi. Parlament seçkilərində Azərbaycan xalqının iradəsi öz əksini tapdı və Azərbaycan cəmiyyəti bu seçkilərin nəticələrindən məmnun qaldı.

Yeni parlamentin qarşısında duran vəzifələr haqqında mən parlamentin ilk iclasında öz sözlərimi demişəm. Əlavə etmək istərdim ki, parlamentin tərkibi yenidən formalaşdı və ilk dəfə olaraq parlamentin rəhbərliyində müxalifət nümayəndələri də yer aldı. Eyni zamanda, parlament komitələrinin rəhbərliyində də müxalifət nümayəndələri təmsil olunur. Bu, ölkəmizin tarixində ilk dəfə baş verən hadisədir və bir daha onu göstərir ki, bizim niyyətimiz çoxpartiyalı sistemin təkmilləşdirilməsidir. Sirr deyil ki, parlamentdə səslərin çoxluğu Yeni Azərbaycan Partiyasına məxsusdur. Əlbəttə, Yeni Azərbaycan Partiyasının razılığı olmadan bu islahatlar aparıla bilməzdi. Bu, onu göstərir ki, bu istiqamətdə atılan addımlar ölkəmizin gələcək uğurlu inkişafına müsbət təsir edəcək və ölkəmizdə siyasi sistemin yeni konfiqurasiyası formalaşır.

**"Azərbaycanda aparılan islahatlar demək olar ki, bütün sahələri əhatə edir. 2019-cu ildə aparılan islahatlar iqtisadi sahədə böyük dəyişikliklərə səbəb oldu"**

Eyni zamanda, Prezident Administrasiyası bütün siyasi partiyalara dialoq təklifi etmişdir. Bu da çox ciddi addımdır. Sirr deyil ki, bu gün Azərbaycan iqtidarı tarixdə olmadığı qədər güclüdür. Biz hesab edirik ki, güclü ilk addımı atmalıdır, ilk təklifi verməlidir və belə demək mümkündürsə, yolunu azmışlara da yol göstərməlidir. Yəni, biz bunu etdik və şadam ki, siyasi spektrin mütləq əksəriyyəti bu təşəbbüsə müsbət reaksiya vermişdir, faktiki olaraq siyasi dialoq artıq başlamışdır. Əminəm ki, bunun nəticələri də xalqımız üçün və ölkəmizin gələcək inkişafı üçün müsbət olacaqdır. O ki qaldı, bu dialoqdan imtina edən qruplaşmalara, onlar özləri bilərlər. Hər halda mən demişəm, bir daha demək istəyirəm, uduzan tərəf biz olmayacağıq və yeni siyasi konfiqurasiyada satqın, xain beşinci kolonun nümayəndələrinə yer olmayacaq. Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, beşinci kolonun nümayəndələrindən təmizlənir və təmizlənməlidir. Eyni zamanda, Azərbaycan xalqı yaxşı görür ki, xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da mübarizə aparılacaqdır. Son hadisələr, bu istiqamətdə atılan addımlar bunu bir daha göstərir.

İlin əvvəlindən bizim beynəlxalq mövqelərimiz daha da möhkəmləndi. Mənim xarici tərəfdaşlarımla ikitərəfli formatda keçirilmiş görüşlər bir daha onu göstərdi ki, Azərbaycanın dünyada çox böyük hörməti var və bizim siyasətimizə böyük rəğbət var. Eyni zamanda, beynəlxalq tədbirlərdə mənim iştirakım ölkəmizin mövqelərini daha da gücləndirdi. Bildiyiniz kimi, Davos Ümumdünya İqtisadi Forumu dünyanın bir nömrəli siyasi və iqtisadi forumudur. Dünyanın siyasi və biznes elitası bu forumda iştirak edir. Mən bu forumda ardıcıl olaraq uzun illərdir ki, iştirak edirəm və hər bir iştirak ölkəmizə yeni dividendlər gətirir, həm siyasi, həm iqtisadi. Bu dəfə bir daha əmin oldum ki, Azərbaycanda gedən proseslərə böyük maraq var. Bütün tərəfmüqabillərim demək olar bir məsələni qeyd edirdilər ki, Azərbaycan sabit ölkədir və bu gün qeyri-sabit bölgədə, qeyri-sabit dünyada sabitliyi qorumaq böyük məharət və siyasi səriştə tələb edir. Sabitliyin mövcudluğuna görə Azərbaycana sərmayə qoyuluşu da təmin edilir. Keçən il 13,5 milyard dollar xarici sərmayə qoyulubdur, bu ilin yanvar ayında bərpaolunan enerji növlərinin yaradılmasına yönəlmiş 440 milyon dollar xarici sərmayənin qoyuluşu ilə əlaqədar müvafiq sənədlər imzalanmışdır. Ümumiyyətlə, Davos İqtisadi Forumunda bizim iştirakımız çox uğurlu olub. Davos Ümumdünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə regional mərkəzi məhz Azərbaycanda yaradılacaq. Bu mərkəz Qafqaz-Orta Asiya məkanını əhatə edəcəkdir və müvafiq sənəd də imzalanmışdır. Bu, bir daha bizim güclü mövqelərimizi ifadə edir.

Eyni zamanda, hesab edirəm ki, dünyada təhlükəsizlik sahəsində digər bir nömrəli konfrans Münxen Təhlükəsizlik Konfransıdır. Bu konfransda da mən müntəzəm olaraq iştirak edirəm və hər dəfə Azərbaycan həqiqətlərini geniş auditoriyaya çatdırıram. O cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, haqlı olduğunu və tarixi aspektləri çatdırıram. Bu dəfə isə daha gözəl fürsət yaranmışdır, Azərbaycan xalqının və dünyanın gözü qarşısında Azərbaycan öz üstünlüyünü bir daha ifadə etmişdir. Tarixi həqiqət, beynəlxalq hüququn normaları bizim tərəfimizdədir. Münxen Təhlükəsizlik Konfransında Ermənistanın və dünya erməniliyinin uzun illər ərzində apardığı təbliğata sarsıdıcı zərbə vurulmuşdur. Demək olar ki, onların təbliğatı sübutlar, tarixi faktlar, beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr və qərarlar əsasında darmadağın edilmişdir. Hesab edirəm ki, bu sarsıdıcı zərbə erməni təbliğatının sonudur. Münxen Təhlükəsizlik Konfransının auditoriyası kifayət qədər genişdir. Azərbaycan və Ermənistan rəhbərlərinin canlı debatının ilk dəfə keçirildiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu debatlara çox böyük maraq var idi və milyonlarla insan bu debatları həm canlı formatda, həm də ondan sonra izləyə bilmişdir. Ona görə bizim haqq işimiz bir daha öz təsdiqini tapdı və bütün dünya bir daha gördü ki, - mən bunu Valday Forumunda da canlı efirdə demişdim, - Qarabağ Azərbaycandır və nida işarəsi.

*Ardı Səh. 3*

# "Novruz bayramı bizim milli bayramımızdır, milli sərvətimizdir"

## *Prezident İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki*

> *"Parlament seçkiləri ölkəmizdə aparılan siyasətin xalq tərəfindən yüksək qiymətləndirildiyini bir daha ifadə etdi. Parlament seçkilərində Azərbaycan xalqının iradəsi öz əksini tapdı və Azərbaycan cəmiyyəti bu seçkilərin nəticələrindən məmnun qaldı"*

Əvvəli Səh. 2

Bu il iqtisadi sahədə əldə edilmiş uğurlar əlbəttə ki, bizi çox sevindirir. İki ayda ümumi daxili məhsul 2,8 faiz artmışdır. Qeyri-neft sektorunda iqtisadiyyat 6,7 faiz artmışdır. Qeyri-neft sektorunda sənaye istehsalı 21,7 faiz artmışdır. Əhalinin pul gəlirləri 9 faiz artmışdır, inflyasiya isə cəmi 2,8 faizdir.

Yenə də islahatlar hesabına və şəffaflıq tədbirlərinin görülməsi nəticəsində iki ayda dövlət büdcəsinə proqnozdan əlavə 252 milyon manat daxil edilmişdir. Bu, bir daha onu göstərir ki, şəffaflıqla bağlı görülən tədbirlər, kölgə iqtisadiyyatına qarşı aparılan siyasət öz nəticəsini verməkdədir. Əminəm ki, bu müsbət meyil ilin sonuna qədər davam edəcək və Azərbaycan iqtisadiyyatının hazırda kölgədə olan hissəsi kölgədən çıxacaq. Burada təkcə dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməlidirlər, öz fəaliyyətini kölgədən çıxarmalıdırlar və dövlətin vergisini son qəpiyinə qədər ödəməlidirlər. Çünki bilməlidirlər ki, bu vergilər insanların maaşlarının, pensiyalarının artırılmasına istiqamətləndirilir.

Bu il sosial sahədə böyük işlərin görülməsi nəzərdə tutulur. İlin əvvəlindən üç böyük xəstəxana mənim iştirakımla açılmışdır - Goranboy, Şəmkir və Qazax şəhərlərində. Yenə də xəstəxanaların açılması nəzərdə tutulur və sosial infrastrukturun yaradılması istiqamətində işlər aparılacaqdır. Baxmayaraq ki, dünya bazarlarında neftin qiyməti kəskin aşağı düşdü, bizim bütün sosial öhdəliklərimiz təmin ediləcək. Baxmayaraq ki, keçən il görülmüş tədbirlər və qəbul edilmiş qərarlar nəticəsində bizim sosial sahəyə nəzərdə tutulan büdcə xərclərimiz kifayət qədər artmışdır, ancaq bütün sosial öhdəliklər yerinə yetiriləcək və bütün sosial infrastruktur layihələri tam icra ediləcək.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün nəzərdə tutulmuş 7 min mənzil tikilib istifadəyə veriləcək. Şəhid ailələri üçün nəzərdə tutulan 1500 mənzil tikilib istifadəyə veriləcəkdir. Bu məsələ ilə bağlı heç bir şübhə olmamalıdır. Əminəm ki, biz 2020-ci ili də uğurla başa vuracağıq. Halbuki bu gün bir çox ölkələr böyük çətinliklərlə üzləşiblər. Bu ölkələrdə həm siyasi sabitlik pozulur, həm iqtisadi böhran yaşanır və o cümlədən neft hasil edən ölkələrin bəziləri artıq neftin qiymətinin düşməsindən əziyyət çəkməyə başlayıblar. Koronavirus xəstəliyi əlbəttə ki, vəziyyəti çətinləşdirir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, Azərbaycan bu sınaqdan da şərəflə və az itkilərlə çıxacaq. Buna nail olmaq üçün biz hamımız həmrəylik göstərməliyik, məsuliyyət göstərməliyik, birlik göstərməliyik. Dünya üçün bu çətin dövrdə həm xalqımızı, həm dövlətimizi qorumaq üçün xalqımızın ən ülvi xüsusiyyətlərini bir daha göstərməliyik və bunu dünyaya təqdim etməliyik.

Bildiyiniz kimi, koronavirus xəstəliyi dünya gündəliyinin bir nömrəli məsələsidir. Artıq Ümumdünya Səhiyyə Təşkilatı pandemiya elan edibdir və bəyan edibdir ki, pandemiyanın mərkəzi Avropa məkanıdır. Bu xəstəliyin geniş yayılması onu göstərir ki, hətta inkişaf etmiş ölkələr onun qarşısını ala bilmirlər. Bu xəstəliyə qarşı heç bir dərman, vaksin yoxdur və nə vaxt olacaq, heç kim bilmir. Ona görə bu xəstəliyin məhdudlaşdırılması və yayılmaması üçün biz bəri başdan, ən ilk günlərdən praktik addımlar atmağa başlamışıq. Mənim göstərişimlə yanvarın 24-dən Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Bu qərargah 24 saat işləyir, bütün dövlət qurumlarının fəaliyyətinə rəhbərlik edir, xəstəliklə bağlı bütün işləri nəzarətdə saxlayır və bu işləri əlaqələndirir. Ciddi tədbirlər görülmüşdür. Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə yanvarın 24-dən yeni əməkdaşlıq formatı çərçivəsində işləməyə başlamışıq. Onları ölkəmizə dəvət etmişik. Onların tövsiyələrinə riayət edərək ölkəmizdə çox ciddi tədbirlər görmüşük. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri mart ayında Azərbaycana gələrək, vəziyyətlə tanış olaraq bildirdilər ki, Azərbaycan rəhbərliyi koronavirusun yayılmaması üçün çox önəmli və təsirli tədbirlər görür. Bu, həqiqətən də belədir.

Bildiyiniz kimi, bütün uşaq bağçaları, məktəblər, ali məktəblər bağlandı. Kütləvi tədbirlərin keçirilməsi qadağan edildi. Martın 14-dən xüsusi davranış qaydaları tətbiq edildi və ictimaiyyətə bu məsələ ilə bağlı kifayət qədər məlumat verilir. Xəstəliklə, onun yayılması və nəticələri ilə bağlı mənim göstərişimlə vətəndaşlara müntəzəm olaraq bütün məlumatlar verilir. Karantin tədbirləri görülür, yeni laboratoriyalar alınıbdır. Qısa müddət ərzində ən müasir dörd laboratoriya alınıb gətirilib və hazırda bizim laboratoriyalarımızın sayı 10-a çatıb. Lazım olarsa, əlavə laboratoriyalar alınacaqdır. On xəstəxana xüsusi rejimdə işləyir. Bu xəstəxanalar ölkəmizin müxtəlif bölgələrində yerləşir, o cümlədən Bakı şəhərində. Bu xəstəxanalarda həm xəstələrin müalicəsi aparılır və həm də karantin tədbirləri görülür.

Bir çox ölkələrlə gediş-gəliş artıq məhdudlaşdırıldı, demək olar ki, tamamilə aradan qaldırıldı. Bir çox aviareyslər ləğv edildi, sərhədlərimizin bağlanması istiqamətində əməli addımlar atıldı, elektron vizaların verilməsi dayandırıldı və xəstəliyin geniş yayıldığı ölkələrdən Azərbaycana insanların gəlməsi qadağan edildi. Bütün bu tədbirlər əminəm ki, öz müsbət təsirini göstərəcək. Bizim əsas məqsədimiz bu xəstəliyin Azərbaycanda yayılmamasıdır. Buna nail olmaq üçün təkcə dövlət tərəfindən görülən tədbirlər kifayət deyil. Dövlət nə lazımsa edir, vəsait ayırır. Martın əvvəlində bu xəstəliklə mübarizə üçün 10 milyon manat vəsait ayrıldı. Bu gün bəyan edirəm, Prezidentin ehtiyat fondundan əlavə 20 milyon manat ayrılacaq ki, həm bu xəstəliyə qarşı mübarizə daha təsirli olsun, eyni zamanda, koronavirus xəstələrinə qulluq edən həkimlərin maddi təminatı daha da yüksək olsun. Biz bunu da nəzərə alırıq. Mən bir daha Azərbaycan həkimlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bu xəstəliyə qarşı fədakarcasına mübarizə aparırlar, öz sağlamlıqlarını risk altına atırlar. Ancaq yüksək məsuliyyət, içdikləri and əlbəttə ki, onları bu işlərə sövq edir. Xəstələr də həkimlərə böyük diqqətlə yanaşmalıdırlar. Bu, indiyədək dünyada görünməmiş xəstəlikdir və bu xəstəliyin yayılması templəri də bizə bəlli deyil. İnkişaf etmiş bir neçə ölkədə artıq bu xəstəlik bir-iki gün ərzində geniş vüsət alır. Bu, onu göstərir ki, xəstəliyin sanki akkumulyasiya dövrü vardır, ondan sonra bu xəstəlik geniş yayılır. Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Əgər kimsə özündə xəstəlik simptomu hiss edərsə, dərhal həkimlərə müraciət etməlidir, dərhal özünü təcrid etməlidir, kütləvi yerlərə getməməlidir, lazım olmadan kütləvi tədbirlərdə iştirak etməməlidir. Bu tədbirlər artıq ləğv olunub, amma istisna deyil ki, hansısa məsuliyyətsiz adamlar qaydalara uyğun olmayan hərəkətlər etsinlər. Mən bəri başdan hər kəsi xəbərdar etmək istəyirəm, ciddi tədbirlər görüləcək. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir. Hər kəs bilsin, əgər martın 14-də elan olunmuş qaydalara kimsə əməl etməsə, çox ciddi məsuliyyətə cəlb ediləcək.

> *"Azərbaycan təmizlənir, o cümlədən satqınlardan, xainlərdən, beşinci kolonun nümayəndələrindən təmizlənir və təmizlənməlidir. Eyni zamanda, Azərbaycan xalqı yaxşı görür ki, xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparılır, korrupsiyaya, rüşvətxorluğa qarşı bundan sonra da mübarizə aparılacaqdır. Son hadisələr, bu istiqamətdə atılan addımlar bunu bir daha göstərir"*

Təəssüflər ki, məsuliyyətsizliklə əlaqədar faktlar daxil olur. Eyni zamanda, biz açıq təxribatı da görürük. Bu təxribat haradan gəlir, həmin o beşinci kolondan, içimizdə oturan düşmənlərdən, özünü müxalifət adlandıran ünsürlərdən, xaricdən pul alan satqınlardan. Onların əsas məqsədi Azərbaycanı məhv etməkdir. Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Baxın onların sosial şəbəkələrdəki çıxışlarına, nifrətlə, təxribatla doludur. Sanki istəyirlər ki, iğtişaş olsun. İstəyirlər ki, aləm qarışsın. İstəyirlər ki, panika olsun. Sonra da deyirlər ki, onlar Azərbaycan xalqının qayğıları ilə yaşayırlar. Onlar düşməndirlər və biz bunu açıq deməliyik. Bu xəstəlik həlә bilinmir nəyə gətirib çıxaracaq. Ona görə bu xəstəlik dövründə tamamilə yeni münasibətlər qaydaları mövcud olacaqdır. Hər kəs bunu bilsin və istisna edilmir ki, nə vaxtsa fövqəladə vəziyyət də elan oluna bilər. Belə olan halda, bu beşinci kolonun nümayəndələrinin təcrid edilməsi artıq tarixi zərurət olacaq. Azərbaycan xalqı onları tarixin zibilxanasına çoxdan atıbdır. Orada onlar artıq 30 ilə yaxındır ki, çürüyürlər. Amma biz imkan verə bilmərik ki, anti-Azərbaycan qüvvələr, beşinci kolon, milli satqınlar bu vəziyyətdən istifadə edib hansısa təxribat törətsinlər. Hər kəs bunu bilsin. Bizim siyasətimiz birmənalıdır, bizim iradəmiz qətidir. Biz hər zaman olduğu kimi, Azərbaycan xalqının problemlərini həll edirik və həll edəcəyik. İndiki vəziyyətdə, koronavirus dövründə Azərbaycan dövlətinin addımları bir daha onu göstərir ki, bizim üçün Azərbaycan xalqının sağlamlığı, təhlükəsizliyi, rifahı hər şeydən üstündür və buna nail olmaq üçün biz istənilən addıma gedəcəyik. Heç kimin bu məsələ ilə bağlı şübhəsi olmasın.

Əziz həmvətənlər, bacılar və qardaşlar, dünya yeni dövrə qədəm qoyur. Bu dövrün xüsusiyyəti ondan ibarətdir ki, bilinmir bu xəstəliyin sonu nə vaxt olacaq və bu xəstəlik hansı fəsadlara gətirib çıxaracaq. Ona görə bir daha bütün Azərbaycan xalqını həmrəyliyə, məsuliyyətə dəvət edirəm. Əminəm ki, biz birlikdə bütün sınaqlardan üzüağ çıxacağıq.

Bir daha əziz xalqımı bu gözəl bayram münasibətilə təbrik edirəm, hər bir Azərbaycan vətəndaşına cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait ayrılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 yanvar tarixli 482 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Xalqın sosial rifahı Prezidentin prioritet siyasətidir

## *Prezidentin verdiyi Sərəncam bu reallığı əks etdirir*

***Hər bir ölkənin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri də vətəndaşların layiqli həyat şəraitinin və təhlükəsizliyinin təmin edilməsidir. Bugünkü qlobal problem olan koronavirusla bağlı ölkə rəhbəri də, öz növbəsində, bütün qabaqlayıcı və operativ tədbirlər həyata keçirir. Xalqın bu virusun təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. Azərbaycan güclü dövlətdir, öz vətəndaşlarını bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir.***

Bu baxımdan, martın 18-də Prezident İlham Əliyev yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncam imzalaması, onların əməkhaqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavənin müəyyən edilməsi, bir daha onu göstərir ki, Azərbaycan dövləti həkimlərin fədakarlığını layiqincə qiymətləndirir.



### "Bu, Azərbaycanda yeni sosial qayğı nümunəsi idi"

Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Azərbaycan dövləti koronavirusla mübarizədə ÜST-ün təlimatlarını da nəzərə almaqla, çox ciddi tədbirlər həyata keçirir, vətəndaşlarımızın qorunması, onların sağlamlıqlarının müdafiəsi üçün bütün addımları atır: "Ölkəmizdə effektiv karantin tədbirləri görülür, müəyyən məhdudiyyətlər tətbiq edilir, xaricdəki azərbaycanlılar, xüsusilə də, tələbələr Azərbaycana gətirilir, müasir avadanlıqlar alınır, testlər, yoxlamalar aparılır, narahatlıq doğura biləcək məsələlərə dərhal münasibət bildirilir, sosial-iqtisadi sahədə vətəndaşların maraqları maksimum şəkildə qorunur və təmin edilir".

Sədaqət Vəliyeva onu da bildirib ki, Prezident xalqın təhlükəsizliyinin və sağlamlığının təmin edilməsi üçün qlobal pandemiyanın dünya ölkələrində yaratdığı fəsadları izləyir, düzgün təhlil edir, təhlükələrin qarşısını almaq üçün vaxtında və rasional qərarlar verir, nəzarətin gücləndirilməsi şəraitində yüksək çevikliyə malik operativ qərargahın fəaliyyətini təmin edir: "Elə bu səbəbdəndir ki, dünya ölkələrində, xüsusilə də, Avropada və ABŞ-da yaşanan ajiotaj, kilometrlərlə ərzaq növbələri, qida çatışmazlığı ucbatından mağazalara kütləvi hücumlar, silah alışı və s. panikadan doğan addımlar Azərbaycanda yaşanmadı, yaşanmır. Yeni Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan pandemiyanın ilk dalğalarından çox az itkilərlə çıxdı".





Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, ölkə rəhbərinin qlobal təhlükə ilə mübarizədə ön sırada durması, vətəndaşlarını pandemiya təhlükəsindən qoruması mübarizədə iştirak edən digər insanlarda stimul və həvəs yaradır: "Hər kəs çalışır ki, ölkə Prezidenti kimi ümumi bəla ilə mübarizə aparsın, əlindən gələni etsin. Odur ki, Azərbaycanın bu sahədə mütəxəssis olan həkimləri, tibb bacıları, ümumən, tibb personalı gecə - gündüz demədən işləyir, karantində olan vətəndaşlara, virusa yoluxmuş şəxslərə xidmət edirlər. Çox qürurvericidir ki, hər zaman olduğu kimi, bu dəfə də, İlham Əliyev həkimlərin əməyini və fədakarlığını yüksək qiymətləndirdi. Bu, Azərbaycanda yeni sosial qayğı nümunəsi idi."

### Arzu Nağıyev: "Prezidentin həkim əməyini yüksək qiymətləndirməsi xalq-iqtidar birliyinin sübutudur"

"Koronavirusla bağlı ən böyük mübarizəni, ilk olaraq, bu sahədə ön cəbhədə olan həkimlər görür". Bu sözləri Milli Məclisin deputatı Arzu Nağıyev deyərək, onu da bildirib ki, həmin həkimlər öz peşəkarlıqları ilə seçilərək, həyatlarını riskə atmaqla, ilk növbədə, şübhəli şəxsləri qarşılayır, onları təcrid olunan ərazilərə aparır, infeksiyaya yoluxan şəxslərin birbaşa müalicəsi ilə məşğul olurlar: "Məlum məsələdir ki, bu, çox riskli işlərdən biridir. Həmin həkimlərin hər an bu infeksiyaya yoluxma təhlükəsi var. Bundan başqa, Operativ Qərargahın tərkibində də həkimlərin üzərinə hər hansı bir qərarı vermək kimi çox böyük məsuliyyət düşür. Məhz buna görə də, Prezident İlham Əliyev həkimlərin əməyini yüksək qiymətləndirdi".

Millət vəkili bildirib ki, bu qiymətləndirmədə də əsas meyar, doğrudan da, öz peşəsini sevən şəxslərin davranışı, öz fəaliyyətlərini necə həyata keçirməsidir: "Təbii ki hər işdə zəhməti olan şəxsin əməyi həm mənəvi, həm də maddi cəhətdən qiymətləndirilməlidir. Bu baxımdan, koronavirusla mübarizəyə qoşulan hər bir tibb işçisinin əmək haqqının 3-5 misli qədər müəyyən edilməsi çox mühüm əhəmiyyət kəsb edən məsələdir və çox vaxtında verilmiş qərardır. Bu həkimlərin fəaliyyətini daha da təkmilləşdirməsi üçün bir stimuldur."

Bəli, Azərbaycan dövləti hər zaman bütün sahələrdə öz sözünü deyir. Prezident İlham Əliyev martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışında dəmiryolçularla görüşündə çıxışı zamanı deyib: "Azərbaycan dövləti də sosial sahədə öz sözünü deyir".

Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli və layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi - "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

**RƏFİQƏ KAMALQIZI**

## YAP-ın strukturları Nazirlər Kabinetinin yanında fəaliyyət göstərən Operativ Qərargahın tapşırıqlarına uyğun olaraq koronavirusa qarşı mübarizə səfərbər edilib



Yeni Azərbaycan Partiyasının strukturlarının koronavirusa qarşı mübarizədə Nazirlər Kabinetinin yanında fəaliyyət göstərən Operativ Qərargahın tapşırıqlarına uyğun olaraq virusa yoluxma hallarının qarşısının alınması məqsədilə səfərbər edildiyi xəbər verilmişdir. Buna uyğun olaraq partiyanın bütün strukturlarına müvafiq tövsiyyələr verilib. Bu sıraya ilk növbədə Operativ Qərargahın bütün qərar və tapşırıqlarının hər bir partiya üzvünün diqqətinə çatdırılması və onların icrasında şəxsi intizam göstərilməsi daxildir. Hər bir şəxs özünü virusa yoluxmadan qorumaqla koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına çox vacib fərdi töhvə verə bilər. Eyni zamanda partiya üzvlərinə Operativ Qərargahın qərarlarının əhali arasında təbliğ edilməsi, tanışlarını, yaxınlarını və digər insanları virusa yoluxma hallarının qarşısının alınması məqsədilə mütəxəssis tövsiyyələrinə əməl olunmasında şəxsi intizama və məsuliyyətə dəvət etmələri tövsiyyə olunub. Habelə, yerli partiya təşkilatlarının virusa yoluxma hallarının qarşısının alınması məqsədilə ehtiyacı olan insanlara imkanları daxilində zəruri kömək və yardımın göstərilməsi tapşırığı verilib.

## Qənirə Paşayeva: "Azərbaycan Prezidentinin islahatlarının məqsədi vətəndaş məmnunluğunun təmin edilməsidir"



Azərbaycan Prezidenti İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı nitqində hər birimizin qarşısına mühüm vəzifələr qoydu və bizi işimizdə daha məsuliyyətli olmağa çağırdı. Dövlətimizin başçısı qanunvericilikdə təkmilləşdirmə aparılmasının, daha çox keyfiyyətə diqqət yetirilməsinin, eləcə də yeni qanunların qəbul edilməsinin vacibliyini vurğuladı. Komitə sədri olaraq deyə bilərəm ki, mədəniyyətimizin müxtəlif sahələrinin inkişafı istiqamətində qanun bazasının möhkəmləndirilməsi üçün çox ciddi işlər görəcək və bu sahədə fəaliyyətimizi genişləndirəcəyik. Bu sözləri AZƏRTAC-a müsahibəsində Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib. "Düşünürəm ki, Prezident İlham Əliyevin Milli Məclisdəki nitqi müxtəlif dövlət qurumları, eləcə də parlament üzvləri də daxil olmaqla, hər bir Azərbaycan vətəndaşı üçün mesaj idi. Dövlət başçısının həyata keçirdiyi bütün islahatların mərkəzində Azərbaycan vətəndaşının məmnunluğu dayanır. Vətəndaşların daha yaxşı yaşaması, onların problemlərinin həlli Azərbaycan Prezidentinin diqqət mərkəzindədir. Bir sözlə, Prezidentin Milli Məclisin qarşısında qoyduğu vəzifələr çox önəmli idi. İnanıram ki, altıncı çağırış Milli Məclisin fəaliyyəti çox məhsuldar olacaq", - deyə komitə sədri vurğulayıb.

Q.Paşayeva bildirib ki, hər bir xalqı dünyada tanıdan, ilk növbədə, onun mədəniyyətidir. Azərbaycan xalqı öz zəngin mədəniyyəti, qədim tarixi ilə hər zaman qürur duyur. "Biz müvafiq qurumlarla mədəniyyət sahəsinin daha da inkişafı üçün səylərimizi artıracağıq. Mədəniyyət komitəsi əlaqədar qurumlarla geniş müzakirələr aparmağı planlaşdırır. Biz mədəniyyətə aid müxtəlif sahələr üzrə aidiyyəti qurum rəhbərlərinin və nümayəndələrinin rəy və təkliflərini öyrənəcək və onların qaldırdıqları məsələlərin qanunvericilikdə öz əksini tapmasına çalışacağıq. İnanıram ki, mədəniyyətimizin daha da inkişaf etdirilməsinə təkan verəcək yeni qanunlar qəbul olunacaq. Mədəniyyətimizin dünyada daha geniş təbliği istiqamətində də səylərimizi artıracağıq. Bu məsələdə qanunvericilik bazasının möhkəmləndirilməsi mühüm şərtlərdəndir. Bu istiqamətdə də mədəniyyət komitəsi müvafiq qurumlarla daha sıx əlaqələr yaradacaq və əməkdaşlığı genişləndirəcək", - deyə komitə sədri bildirib.

Komitənin ekspertlərlə də işləyəcəyini diqqətə çatdıran deputat bildirib: "Komitənin iclaslarında mədəniyyət sahəsi üzrə ekspertlər də iştirak edəcək və onların fikirləri dinləniləcək. Müzakirələr zamanı mühüm amillər diqqətdə saxlanılacaq. Məqsədimiz daha çox inkişafa nail olmaqdır. Azərbaycan Prezidentinin də qarşıya qoyduğu hədəf məhz budur: daha çox inkişaf, Azərbaycanın dünyada daha çox tanıdılması və vətəndaşlara xidmətin səviyyəsinin yüksəldilməsi".

## Azərbaycanda daha 10 nəfərdə koronavirus infeksiyası aşkarlandı

***Azərbaycanda 10 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Nazirlər Kabinetinin yanında Operativ Qərargahdan Trend-ə verilən məlumata görə, xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan pasiyentlər özlərini normal hiss edirlər, səhhətləri stabil qiymətləndirilir. İnfeksiyaya yoluxmuş həmin şəxslər müxtəlif vaxtlarda Almaniya, Fransa, Türkiyə və İrandan Azərbaycana qayıdıblar.***



Hazırda Azərbaycanda 33 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli müəssisələrdə həkim nəzarəti altında saxlanılır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, hər bir şəxsi Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə ciddi riayət etməyə çağırırıq. Eyni zamanda vətəndaşlardan özünütəcrid tədbirlərinə uyğun davranmaq, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmaq, digər şəxslərlə minimum kontaktda olmaq, insanların sıx toplaşdığı yerlərə getməmək kimi qaydalara əməl etmək tələb olunur.

## Leyla Əliyevanın dəstəyi ilə azərbaycanlı tələbələr Rusiyadan vətənə gətiriliblər



Koronavirus (COVİD-19) infeksiyasının dünyada pandemiya halını aldığı və ölkələrin bununla bağlı bir sıra məhdudlaşdırıcı tədbirlər gördüyü, o cümlədən təhsil müəssisələrində tədrisin dayandırıldığı məlumdur. Bu xüsusda, Rusiyanın müxtəlif ali təhsil müəssisələrinin tələbə yataqxanalarının karantinə bağlanması ilə əlaqədar bu şəhərdə təhsil alan bəzi azərbaycanlı tələbələr yaşayış yeri problemi ilə üzləşiblər.

Trend-in məlumatına görə, bu mürəkkəb vəziyyətlə qarşılaşan tələbələrimizin müraciətlərini nəzərə alaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) sədri Leyla xanım Əliyevanın tapşırığı ilə təşkilat Rusiyada təhsil alan azərbaycanlı tələbələrin Azərbaycana qayıtmasını təmin edib.

Ötən gecə vətənə qayıdan tələbələrin səhhətlərində heç bir problem aşkarlanmamışdır. Xarici ölkələrdə təhsil alan digər tələbələrin məskunlaşdıqları ölkədə tətbiq edilən xüsusi rejimə, karantin qaydalarına riayət etmələri, təxliyyə zərurəti yarandığı halda təcili olaraq həmin ölkələrdəki səfirliklərimizə və digər aidiyyəti olan təşkilatlara məlumat vermələri tövsiyə olunur.

## Hikmət Hacıyev: "AŞPA məruzəçisi Azərbaycanla hədə və təhdidlə danışa bilməz"



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) məruzəçisi Sunna Evarsdottirin Azərbaycanla bağlı qərəzli bəyanatına münasibət bildirib. SİA xəbər verir ki, Hikmət Hacıyevin açıqlamasına əsasən, sözügedən şəxs öz mandatını aşaraq Azərbaycana qarşı qərəzli münasibət nümayiş etdirməklə ölkəmizi hədələmək və vəzifəsindən ölkəmizə qarşı hücumlar üçün sui-istifadə etmək yolunu tutub.

"Vurğulamaq istərdim ki, Azərbaycan tərəfi S.Evarsdottir ilə konstruktiv əməkdaşlıq üçün şərait yaratmış və onun 2019-cu ildə məruzəçi qismində ölkəmizə səfəri həyata keçirilmişdir. Təəssüf edirik ki, S.Evarsdottir Azərbaycanın bu xoş münasibətini düzgün qiymətləndirə bilmədi və fevralın 9-da keçirilmiş növbədənkənar parlament seçkiləri ərəfəsində onun verdiyi bəyanatlar qərəzli münasibətin bariz nümunəsidir. S.Evarsdottirin bu qeyri-etik açıqlaması məzmunca əsassız, mahiyyətcə qərəzli, tərz etibarilə isə tamamilə qəbuledilməzdir. S.Evarsdottir anlamalıdır ki, Azərbaycanla hədə və təhdid dilində danışa bilməz", - deyə Hikmət Hacıyev qeyd edib.

Prezidentin köməkçisi vurğulayıb ki, AŞPA-da Azərbaycanı hədələməyə çalışan və ölkəmizə qarşı fəaliyyət göstərən qərəzli qüvvələr həmişə mövcud olub. Lakin onlar heç vaxt öz çirkin məqsədlərinə nail ola bilməyib və siyasi səhnədən silinib gediblər. Onların uğursuz siyasi aqibəti S.Evarsdottir üçün də dərs olmalıdır.

***Nigar Məmmədova***

## Mixail Qusman: "Rusiya və Azərbaycan aviaşirkətləri arasında çarter reysləri barədə razılaşma Moskva ilə Bakının dostluq münasibətlərinin daha bir göstəricisidir"



Rusiya və Azərbaycan arasında birgə çarter reyslərinin həyata keçirilməsi barədə AZAL-ın və "Aeroflot"un operativ şəkildə əldə etdikləri razılıq Moskva ilə Bakının sıx dostluq münasibətlərinin daha bir göstəricisidir.

Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman bu sözləri AZƏRTAC-a müsahibəsində deyib. O xatırladıb ki, koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanın və Rusiyanın hökumət başçıları iki ölkənin vətəndaşlarının qarşılıqlı səfərlərinin martın 18-də saat 00:00-dan müvəqqəti dayandırılması barədə razılıq əldə ediblər. M.Qusman deyib: "Elə ertəsi gün AZAL və "Aeroflot" aviaşirkətləri Rusiya və Azərbaycan arasında qarşılıqlı çarter reyslərinin həyata keçirilməsi barədə razılığa gəldilər və artıq 697 Azərbaycan vətəndaşı Moskvadan və Sankt-Peterburqdan Bakıya çatdırılıb. Mən özüm Moskvadan Bakıya sonuncu reyslə uçmuşam. Onda hələ vəziyyətin necə olacağı aydın deyildi. Lakin rəsmi hakimiyyət orqanları bütün məsələləri həmişəki kimi operativ həll etdilər".

Mixail Qusman vurğulayıb ki, Monteneqroda yerli hökumət orqanlarının Rusiya aviaşirkətlərinə öz vətəndaşlarını təxliyə etməsinə razılıq verməməsi səbəbindən minədək rusiyalı turist öz vətəninə qayıda bilmədi.

"Rusiya və Azərbaycanın aviaşirkətləri arasında birgə çarter reyslərin yerinə yetirilməsi barədə əldə edilmiş razılıq, bütün məsələlərin bu cür operativ və işgüzarcasına həll edilməsi Moskva ilə Bakı arasında sıx dostluq münasibətlərinin daha bir göstəricisidir. Bu münasibətlərin əsasını ölkələrimizin prezidentləri arasında şəxsi qarşılıqlı əlaqələr, sıx əməkdaşlıq və dostluq münasibətləri və əlbəttə ki, ən müxtəlif istiqamətlərdə hərtərəfli və qarşılıqlı səmərəli əməkdaşlığın inkişafı üzrə Azərbaycanda və Rusiyada aparılmış çoxillik işin nəticəsi təşkil edir", - deyə M.Qusman qeyd edib.

# Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması dövlət siyasətinin çox mühüm istiqamətlərindəndir

## *Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılovun yap.org.az-a müsahibəsi*

***- Mehman müəllim, Azərbaycan xalqı zəngin milli-mənəvi dəyərlərə malikdir. Xalqımızın əsrlər boyu yaşatdığı dəyərlərin, ənənələrin qorunması və təbliğinin əhəmiyyəti, eləcə də bu istiqamətdə görülən işlər barədə nə deyə bilərsiniz?***

- Milli-mənəvi dəyərlər xalqların kimliyinin formalaşmasında müstəsna rola malikdir. Ümumiyyətlə, milli-mənəvi dəyərlər dedikdə, əsas etibarilə, milli ideologiya, mədəni yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, və s. nəzərdə tutulur. Tarixi təcrübə göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən silinmək təhlükəsi ilə üzləşiblər.

Milli-mənəvi dəyərlərimiz bir xalq kimi kimliyimizi təsdiqləyən vəsiqəmizdir. Bir xalqın və ya ölkənin digər millətlər arasındakı yeri həm də onun milli-mənəvi dəyərlərini nə dərəcədə yaşatması ilə ölçülür. Xalqımız zəngin dəyərlərə sahibdir. Bu dəyərlərin qorunması və təbliği, əlbəttə ki, çox mühüm məsələdir. Hər şeydən əvvəl, bu bizim milli kimliyimiz, varlığımız və mədəniyyətimizlə bağlıdır. Dəyərlərimizi qorumaq kimliyimizi qorumaq, onları təbliğ etmək isə mədəniyyətimizin təbliği deməkdir. Müasir dünyada kimliklərin, mədəniyyətlərin və dəyərlərin təbliği və tanıdılması üçün imkanlar daha genişdir və biz bu imkanlardan maksimum dərəcədə istifadə edirik.

Azərbaycan Şərq ilə Qərb arasında körpü rolunu oynayan, sivilizasiyalararası dialoqa mühüm töhfələr verən, tolerantlıq nümunəsi və multikulturalizm diyarı kimi tanınan ölkədir. Bunu təmin edən ən mühüm amillərdən biri xalqımızın zəngin mənəvi dəyərlərə malik olması, bu dəyərlərin qorunması, yaşadılması, müasir dəyərlərlə zənginləşdirilməsidir.

Ümumiyyətlə, Azərbaycanın tolerantlıq nümunəsi beynəlxalq müstəvidə - dünya miqyasında da yüksək qiymətləndirilir. Ənənə şəklində nəsillərdən nəsillərə ötürülən bu mühit müsbət və mütərəqqi nümunə kimi diqqəti cəlb edir, təqdirəlayiq hal olaraq dəyərləndirilir. Müxtəlif mədəniyyətlərin qovşağında yerləşən müstəqil ölkəmiz dövlət başçısı cənab İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində multikultralizm və tolerantlığın mərkəzinə çevirilib, respublikamızda müxtəlif xalqların nümayəndələri sülh, əmin-amanlıq və mehribanlıq şəraitində yaşayırlar. Öz ənənə və dəyərlərini qoruyaraq müasir dünyaya inteqrasiya edən ölkəmiz üçün bu siyasət mühüm əhəmiyyət kəsb edir. Bunun nəticəsində biz həm öz tarixi mirasımıza sahib çıxır, həm də dünyada sülhün təbliği, mədəniyyətlər və dinlərarası dostluq münasibətlərinin inkişafında aktiv rol oynayırıq.



***- Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiri dövrlərdə milli-mənəvi dəyərlərimizin yaşadılaraq gələcək nəsillərə ötürülməsinin tarixi önəmi barədə nə düşünürsünüz?***

- Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə xüsusi əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyev qeyd edib ki, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir: "Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyev həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə milli-mənəvi dəyərlərin qorunması və təbliğinə xüsusi diqqət yetirib. Xüsusilə də, milli-mənəvi dəyərlərin yaşadılması müstəqillik illərində dövlət quruculuğu prosesində mühüm əhəmiyyətə malik olub. Yəni dövlətin müstəqilliyinin qorunmasını təmin edən əsas sütunlardan biri məhz milli-mənəvi dəyərlər olub. Bu, eyni zamanda, sağlam cəmiyyətin formalaşdırılmasında, milli dəyərlərimizə bağlı gəncliyin yetişməsində vacib rola malik olub. Azərbaycan xalqının söykəndiyi bu dəyərlər Ulu Öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Müxtəlif dövrlərdə milli-mənəvi dəyərlərimiz təzyiqlərə məruz qalsa da, Azərbaycan müstəqil olduqdan sonra mənəvi dəyərlərimizin qorunması dövlətin əsas strategiyasına çevrildi. Azərbaycanda milli ruhun yüksəlməsində Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olub. Ümummilli Liderimizin azərbaycançılıq ideologiyası dəyərlərimizin qorunması baxımından çox böyük əhəmiyyət kəsb edir.

***- Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən ardıcıl, məqsədyönlü tədbirlərin səmərəli nəticələri ilə əlaqədar nə demək olar?***

- Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin davamı olaraq bu gün Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasını, təbliğ və təşviq edilməsini daim diqqət mərkəzində saxlayır. Paytaxt Bakıda, regionlarda və ölkə hüdudlarından kənarda milli-mənəvi dəyərlərimizin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçirilməsi, maarifləndirmə işinin aparılması, müvafiq proqramların hazırlanması və həyata keçirilməsi, habelə bu sahədə sosial layihələrin reallaşdırılması, mənəvi dəyərlərin təbliğinə yönəlmiş ədəbiyyatların çapı, qısametrajlı filmlərin çəkilməsi və digər işlərin ardıcıl surətdə davam etdirilməsi milli-mənəvi dəyərlərin qorunması baxımından mühüm əhəmiyyətə malikdir. Dövlətin hərtərəfli qayğısı sayəsində cəmiyyətdə xalqımızın milli-mənəvi dəyərlərinə böyük bağlılıq yaranıb. Ölkəmizdə bütün milli və dini bayramlar dövlət səviyyəsində qeyd edilir. Eyni zamanda, tarixdən gələn ənənələrimiz müasir dövrün tələbləri və çağırışları nəzərə alınmaqla daha da zənginləşdirilir.

Bunlarla yanaşı, ölkəmizdə gənclərin milli ruhda tərbiyə almalarına da xüsusi diqqət yetirilir, bu istiqamətdə mühüm tədbirlər reallaşdırılır. Bunun üçün ilk növbədə səmərəli və məqsədyönlü gənclər siyasəti həyata keçirilir. Elə Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər ili" elan olunması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Könülllüyün əsasında vətən sevgisi, xalqa xidmət prinsipləri dayanır. Könüllülərin çoxşaxəli fəaliyyəti həm də milli-mənəvi dəyərlərin təbliği kontekstində böyük önəm daşıyır.

***- Birinci vitse-prezident Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərimizin qorunmasını və təbliğini daim diqqətdə saxlayır. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu sahədə genişmiqyaslı fəaliyyət göstərir, əhəmiyyətli layihələr həyata keçirir. Görülən işlər əhəmiyyəti və qazanılan nailiyyətlər nədən ibarətdir?***

- Tamamilə doğrudur, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da milli-mənəvi dəyərlərimizin qorunmasını daim diqqətdə saxlayır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu sahədə çox mühüm layihələr reallaşdırır, milli mədəniyyətimizin, mənəvi dəyərlərimizin qorunması və inkişafı istiqamətində genişmiqyaslı fəaliyyət göstərir. Azərbaycanın zəngin tarixi və mədəni irsi dünya ictimaiyyətinə dolğun surətdə çatdırılması da çox böyük əhəmiyyətə malikdir. Mehriban xanım Əliyevanın səyləri nəticəsində tarixi irsimizi əks etdirən digər nümunələrlə yanaşı, Novruz bayramının da UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi isə bu kontekstdə əlamətdar hadisədir.

Bütövlükdə, Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması dövlət siyasətinin mühüm prioritetlərindəndir. Xalqımızın zəngin milli-mənəvi dəyərlərinin yaşadılması və gələcək nəsillərə ötürülməsinə xüsusi diqqət yetirilir, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

## Vüqar Rəhimzadə: "Azərbaycanda insan amilinə dəyər dövlət siyasətinin əsasını təşkil edir"



"Günümüzün əsas müzakirə mövzusu olan koronavirus təhlükəsi ölkəmizdə səhiyyə sisteminin mövcud vəziyyətini, dövlətimizin bu sahənin inkişafına xidmət edən addımlarını və uğurlu nəticələrini bir daha nəzərdən keçirməyi bir zərurət duyulur. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu. Bu vəzifənin uğurlu icrası ilk növbədə regionların malik olduğu potensial imkanlardan səmərəli istifadəni aktuallaşdırdı, təsdiqlənən Dövlət proqramlarında insan amilinə dəyərdən irəli gələn addımlar və onların icra mexanizmləri öz əksini tapdı. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi, onların təhlükəsiz, sağlam şəraitdə yaşayışının təminatı dövlət siyasətinin əsasını təşkil edir. Regional inkişaf proqramlarında əksini tapan müddəalardan biri sosial layihələrin tərkib hissəsi olaraq bölgələrdə müalicə-diaqnostika mərkəzlərinin inşa edilməsi və insanların istifadəsinə verilməsidir. Səhiyyə sistemində aparılan təkmil, ardıcıl islahatlar bu sahənin yeni, müasir mərhələyə qədəm qoymasına geniş imkanlar yaradır. Beynəlxalq standartlara cavab verən müasir xəstəxana və tibb ocaqları vətəndaşların sağlamlığının qorunmasını, onların müayinə-müalicə işini yüksək səviyyədə həyata keçirmələrini şərtləndirir. Göstərilən diqqət və qayğı, həmçinin həkim heyətinin daha səylə çalışmalarına, vətəndaş məmnunluğunun artırılmasına öz töhfələrini verməyə stimul yaradır." Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin koronavirusla mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncamı ilə bağlı KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, hazırda dünya gündəmini zəbt edən koronavirusla mübarizə tədbirlərinin gücləndirilməsi ölkəmizdə davamlılığı ilə diqqət çəkir. Dövlətimizin başçısı İlham Əliyevin göstərişinə uyğun olaraq Nazirlər Kabinetinin yanında xüsusi Operativ Qərargah yaradılıb. Daim bu çağırış edilir ki, hər kəs bu xəstəliklə mübarizə aparmaq üçün profilaktik tədbirlərin həyata keçirilməsinə xüsusi diqqət yetirməli, xəstəliyə yoluxmamaq üçün maarifləndirmə işinin daha da gücləndirilməsinə öz dəstəyini göstərməlidir. Ölkə ərazisində monitorinqlər aparılır, bütün sərhəd-keçid məntəqələrində xüsusi cihazlar quraşdırılıb. Ayrı-ayrı dövlətlərə təmasların minimallaşdırılması və ya ümumiyyətlə, dayandırılması, ölkə daxilində ictimai həyata və davranışa sərt məhdudiyyətlərin tətbiq edilməsi bir çox ölkələr üçün səciyyəvi hal alıb.

Baş redaktor bildirib ki, Prezident İlham Əliyev tərəfindən atılan addımlar, bütün fövqəladə hallarda ölkə vətəndaşlarının yanında olması böyük rəğbətlə qarşılanır. Sosial problemlər həll olunduqca, rifah halı yüksəldikcə, insan amili öndə saxlanıldıqca vətəndaş da dövlətinə daha çox güvənir, ölkəsinin daha da güclənməsinə töhfəsini vermək üçün məsuliyyət hissini daha da artırır. Bu güvənc, inam öz növbəsində dövlətlə vətəndaş arasında birlik, sarsılmaz bağlılıq yaradır.

Vüqar Rəhimzadə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın koronavirus infeksiyası ilə bağlı xalqımıza müraciətində ifadə edilən bu əminliyi bir daha diqqətə çatdırıb ki, ümumi səylər mütləq nəticə verəcək. Təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsi, şəxsi məsuliyyət və intizamlılıq özümüzü və ətrafımızdakıları qorumağın əsas şərtləridir.

Baş redaktor bu gün infeksiya ilə mübarizədə ön cəbhədə olan, Azərbaycan vətəndaşlarının sağlamlığının keşiyində dayanan, onların həyatını qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirən həkimlərə, tibbi personala öz minnətdarlığını ifadə edərək, dövlətimizin başçısı İlham Əliyevin koronavirusla mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən Sərəncamını ümumilikdə ölkə səhiyyəsinin inkişafına, insanların sağlamlığına, bir sözlə, insan amilinə göstərilən diqqət və qayğının tərkib hissəsi kimi dəyərləndirib. V.Rəhimzadə bu mühüm məqamı da xüsusi qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Azərbaycanı hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biri kimi dəyərləndirir. Hazırda Azərbaycan hökuməti ÜST-ün tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması, virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirir.

## "Lider ən kritik vaxtlarda öz vətəndaşının yanında"



Prezident İlham Əliyev hər zaman xalqının yanındadır və onun tərəfindən həyata keçirilən sosial siyasət bu reallığı tam şəkildə əks etdirir. SİA xəbər verir ki, bunu "Trend"ə "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Azərbaycan Prezidentinin yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında imzaladığı Sərəncamına münasibətini bildirərkən deyib.

Onun sözlərinə görə, ölkə başçısı bütün kateqoriyalar üzrə vətəndaşları öz diqqət və qayğısı ilə əhatə edir: "İstər hərbçilər, müəllimlər, istərsə də şəhid ailələri, qaçqın və məcburi köçkünlər və s. kateqoriyalara aid vətəndaşlarımız davamlı şəkildə həyata keçirilən uğurlu sosial siyasətdən bəhrələnirlər. Cənab İlham Əliyev daim öz çıxışlarında vurğulayır ki, dövlətin əsas qayəsi insan kapitalının inkişafına yönəlib. Çünki hər bir vətəndaş dövlətin milli sərvətidir və bu sərvətin idarəolunması, tərəqqisi mühüm siyasi strategiyadır. Məhz bu baxımdan, qeyd etmək istərdim ki, bütün bu kimi gerçəkliklər kontekstində Prezident İlham Əliyevin həkimlərin əməyini yüksək qiymətləndirməsi və tibb işçilərinin maaşlarının 3-5 mislinədək əlavələrin müəyyən edilməsi faktı sosial qayğının sübutudur".

"Deyərdim ki, dövlət başçısı artıq Azərbaycanda yeni sosial qayğı strategiyasını müəyyən edib və bunu bir nümunə olaraq təqdim edir", - deyən Bəhruz Quliyev sonda onu da bildirib ki, Azərbaycanı müxtəlif təhdidlərdən qoruyan, davamlı və böyük uğurlar əldə etməsinə imkan yaradan mühüm səbəblərdən biri məhz Liderlə xalq arasında olan bağlılıqdır: "Bəli, bu, Lider-Xalq birliyinin, inamının təcəssümü və ondan doğan təzahürdür. Lider ən kritik vaxtlarda öz vətəndaşının yanında, vətəndaş isə öz dövlətinin, liderinin yanındadır".

Xatırladaq ki, Prezident İlham Əliyev yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilir. Nazirlər Kabinetinə bu Sərəncamla müəyyən edilən müddətli əlavənin şamil olunacağı tibb işçilərinin əhatə dairəsini, əlavənin ödənilmə müddətini və işin xüsusiyyətindən asılı olaraq miqdarını müəyyən etmək, COVİD-19 infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinin və könüllülərin əməyinin ödənilməsi şərtlərini müəyyən etmək və Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

## Avstriya radiosu Azərbaycana bağlı silsilə verilişlər yayımlayacaq




Geniş dinləyici kütləsinə malik və Avstriya radiosunun əsas kanalı olan "Ö1"də martın 21-dən 29-dək Azərbaycana həsr olunmuş silsilə verilişlər yayımlanacaq. Nazirlikdən SİA-ya verilən xəbərə görə, bu barədə radionun mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilir ki, "Qonşuluqda" adlı layihə çərçivəsində artıq uzun illərdən bəri Avropanın qonşuluğunda yerləşən ölkələrə həsr olunan silsilə verilişlər hazırlanır. Layihənin redaksiyası bu il üçün Azərbaycan haqqında verilişlər hazırlamaq qərarına gəlib və yayım üçün Novruz bayramı ərəfəsini münasib hesab edib.

Silsilə verilişlər arasında "20-ci əsr Azərbaycan klassik musiqisi", "Azərbaycanda Zərdüştün varisləri", "Novruz - bahar bayramı", "Bakıdan Qobustan Milli Parkına - Azərbaycanda ənənə ilə müasirlik arasında səyahət", "Azərbaycan müasir və eksperimental musiqi" və digər mövzular əksini tapacaq.

Qeyd edək ki, radionun əməkdaşı Sabine Nikolay həmin verilişlər üçün materialların toplanması və müsahibələrin alınması üçün yanvar ayında Azərbaycanda səfərdə olub, eləcə də Vyanada Azərbaycan Mədəniyyət Mərkəzi ilə sıx əməkdaşlıq edib.

## Prezidentin sərəncamı yeni sosial qayğı nümunəsidir



"Azərbaycan Prezidentinin Yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncamı hər şeydən öncə Prezident tərəfindən səhiyyə işçilərinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirilməlidir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan qəzetinin baş redaktoru, Milli Məclisin üzvü Hikmət Babaoğlu deyib.

O, söyləyib ki, koronavirus kimi təhlükəli virusa qarşı mübarizədə ön cəbhə əsgərlərimiz, həkimlərimiz və digər tibbi xidmət personalımızdır: "Onlar mürəkkəb şəraitdə gərgin əmək sərf edərək sutka ərzində demək olar ki , fasiləsiz çalışırlar. Xəstə yaxınlarının ümid yerinə çevrilirlər və eyni zamanda bir qədər də təzyiq altında olurlar. Çünki hər birimizin onlardan gözləntilərimiz olduqca böyükdür. Belə vəziyyətdə heç şübhəsiz ki, tibbi xidmət sahəsində fədakar əmək sərf edən vətəndaşlarımız əməklərinin maddi qarşılığını almalı, gündəlik qayğılardan azad olmalıdırlar".

Deputat qeyd edib ki, Azərbaycan Prezidenti tərəfindən yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əmək haqlarının üçbeş dəfə artırılması da məhz bu kimi problemləri həll etmək istiqamətində atılan addımdır: "Bu sərəncam təkcə tibb işçilərinə qayğı kimi deyil həm də koronavirusa yoluxmuş yaxud potensial xəstə ola biləcək vətəndaşlarımıza da qayğı kimi qiymətləndirilməlidir. Çünki hər xəstənin müalicəsi özlüyündə növbəti yoluxma hadisəsinin qarşısının da alınması deməkdir. Nəzərə almaq lazımdır ki, koronavirusa yoluxmuş bir xəstə təqribən yüz vətəndaşı yoluxdurma potensialına sahibdir və buna qarşı vaxtında mübarizə aparmaq lazımdır. Ona görə də Prezidentin sərəncamı həm də xəstəliyə qarşı önləyici tədbirləri motivasiya edən addım kimi də qiymətləndirilə bilər".

*Aysel Məmmədova*

## "Bu, təkcə tibb işçilərinə deyil, bütün vətəndaşlarımıza olan qayğıdır"



"Yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ölkə başçısının bütün tibb işçilərinə, tibb xidmətinə olan qayğısı və diqqətidir". Bunu SİA-ya millət vəkili Elman Məmmədov deyib.

"Hətta deyərdim ki, bu təkcə tibb işçilərinə olan qayğı deyil, bu ümumilikdə bütün vətəndaşlarımıza olan qayğıdır. Yəni əgər tibb işçiləri əziyyət çəkib normadan artıq saatlarla işləyib və hətta bəzən xəstələrlə ünsiyyətdə öz sağlamlıqlarını da təhlükə altına qoyub çalışırlarsa, tibb işçilərinin əməyinə bu qiymət verilir. Ancaq bu qiymət eyni zamanda ona görə verilir ki, onlar Azərbaycan vətəndaşlarının sağlamlığını qoruyur. Demək cənab Prezidentin bu addımı ümumilikdə bütün vətəndaşlarımızın təhlükəsizliyinə yönəlib ki, tibb işçilərimiz daha diqqətli, məsuliyyətli olmaqla vətəndaşlarımızın sağlamlığını qorumaqda daha da fədakarlıq göstərsinlər. Bu bütün vətəndaşlarımız üçün bir nümunədir. Hiss etsinlər ki, ölkə başçımız onların sağlamlığının keşiyində duranlara qayğı və diqqət göstərir. Bu çox vacib bir addımdır. Bunu təkcə biz Azərbaycan vətəndaşları olaraq demirik. Hətta bunu Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) özünün münasibətində, hesabatlarında da göstərir ki, Azərbaycanda koronovirusla bağlı dövlət səviyyəsində çox yüksək səviyyəli tədbirlər görürülür və görülməkdə də davam edir. Ötən gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan xalqına koronovirusla bağlı diqqəti, qayğısı Heydər Əliyev Fondunun dünyanın ən aparıcı dövlətlərində olan müəyyən avadanlıqların gətirilməsi, təchiz olunması ilə bağlı addımları və s. dövlət başçımızın, Birinci vitse-prezidentimizin xalqımıza, vətəndaşlarımıza olan qayğısıdır. Təbii ki, bütün bunlar alqışlanmalıdır", - deyə, E.Məmmədov fikrini tamamlayıb.

## Mərkəzi Bank: Kommersiya banklarına daxil olan nağd pul nişanları təkrar tədavülə buraxılmayacaq



Məlum olduğu kimi, ölkəmizdə hökumət tərəfindən koronavirus (COVID-19) infeksiyasına qarşı mübarizənin təşkili çərçivəsində insanların kütləvi toplanış və təmas yerlərinin, eləcə də bununla əlaqədar olan işlərin, proseslərin minimallaşdırılması tədbirləri həyata keçirilir və bu tədbirlər çərçivəsində Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən də daimi əsasda müvafiq addımlar atılır.

Bu barədə AMB-dən AZƏRTAC-a verilən məlumatda deyilir. Son günlər bir sıra media orqanlarında koronavirus infeksiyasının pul nişanları vasitəsilə də yayılması barədə məlumatlarla əlaqədar aşağıdakıları bildiririk:

Mərkəzi Bank tərəfindən həyata keçirilən tədavüldə təmiz pul siyasətinə uyğun olaraq, kommersiya banklarına qarşı xüsusi tələblər müəyyən edilib, onlara daxil olan nağd pul nişanlarının təkrar tədavülə buraxılmaması və müvafiq standartlara uyğun emaldan keçirilməsi üçün Mərkəzi Banka təhvil verilməsi tapşırılıb. Bu qaydalara uyğun olaraq kommersiya bankları tərəfindən Mərkəzi Banka təhvil verilən pul nişanları, eləcə də kommersiya bankları və əhali ilə yaradılmış birbaşa kanallar vasitəsilə dövriyyədə köhnəlmiş, çirklənmiş və yararsız hala düşmüş pul nişanları yığılaraq Mərkəzi Bankın xəzinələrində xüsusi ayrılmış yerlərdə saxlanılır. Bu xəzinələr müasir temperatur və rütubət tənzimləyən sistemlərlə təchiz edilib və sanitar epidemik normalara uyğun dövri olaraq dezinfeksiya olunur.

Dövriyyəyə yararlı pul nişanları təkrar dövriyyəyə buraxılmamışdan əvvəl Mərkəzi Bankda istifadə olunan və beynəlxalq təcrübədə ən son texnoloji standartlara cavab verən avtomatlaşdırılmış banknot emalı avadanlıqlarında yüksək təzyiqli hava axınları vasitəsilə müxtəlif tozlardan təmizlənərək, eləcə də xüsusi infraqırmızı və ultrabənövşəyi şüalandırmadan və yüksək temperatur rejiminə malik sistemlərdən keçməklə çirklərdən sterilizasiya olunur.

## AZAL Budapeşt və İstanbuldan daha 360 Azərbaycan vətəndaşını Bakıya gətirib

Martın 19-na keçən gecə "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti tərəfindən Budapeşt-Bakı istiqaməti üzrə yerinə yetirilmiş çarter reysi ilə 123 Azərbaycan vətəndaşı vətənə qayıdıb. "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu, Azərbaycanın milli aviadaşıyıcısının Avropadan artıq ikinci çarter reysidir. Dünən Romadan Bakıya 161 nəfər sərnişin gətirilib.



Həmçinin martın 19-na keçən gecə İstanbul- Bakı istiqaməti üzrə 237 Azərbaycan vətəndaşının olduğu növbəti çarter reysi yerinə yetirilib. AZAL və "Aeroflot" aviaşirkətləri razılaşma əsasında Rusiyadan (Moskva və Sankt-Peterburq) çarter reyslərini həyata keçirməyə davam edirlər. Bu günə qədər həmin reyslərlə Bakıya 697 Azərbaycan vətəndaşı gətirilib. Azərbaycanın milli aviadaşıyıcısı bu istiqamətdə işləri davam etdirəcək.

# “Ordumuzda keyfiyyət dəyişiklikləri göz qabağındadır və qürur hissi doğurur”





**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyevin Trend-ə müsahibəsi:**

***- Bildiyimiz kimi, Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, bu günlərdə Müdafiə Nazirliyinin rəhbər heyəti ilə birlikdə düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdə olmusunuz. Səfəriniz barədə mətbuatda ətraflı məlumat verilib. Bununla bağlı Sizin təəssüratlarınızı öyrənmək oxucular üçün maraqlı olardı. Təbii olaraq ictimaiyyəti, o cümlədən əsgər ailələrini ilk olaraq Ordumuzda mövcud olan sosial-məişət şəraiti maraqlandırır. Bu barədə fikirlərinizi bilmək istərdik.***

- Əvvəla onu qeyd edim ki, “Ordumuzda görülən uğurlu işlər nəticəsində əldə olunan müsbət dəyişikliklər Müdafiə Nazirliyinin bütün strukturlarında öz əksini tapıb. Əldə olunan nəticə göz qabağındadır və bu hər bir ölkə vətəndaşında qürur hissi doğurur.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, bütün bu müsbət dəyişikliklər Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin prioritet elan etdiyi Ordu quruculuğu prosesinə göstərdiyi diqqət və qayğı sayəsində mümkün olmuşdur.

Ordumuzda mövcud sosial-məişət şəraitindən danışarkən, əgər paytaxt yaxınlığında və yaxud böyük şəhərlərdə dislokasiya olunan hərbi hissələrdən misal çəksəm, istər-istəməz hər kəsdə belə fikir yaranar ki, şəhər mühitində şəraiti yaratmaq mümkündür və bu asan məsələdir.

Lakin istənilən hava şəraitindən asılı olmayaraq Vətənimizin keşiyində ayıq-sayıq dayanan hərbi qulluqçularımız üçün qoşunların təmas xəttində, düşmənlə üzbəüz mövqelərdə və 2016-cı ilin Aprel döyüşləri zamanı azad edilən Lələtəpə yüksəkliyində yaradılan şəraitin şahidi olmaq qəlbləri fərəh və qürur hissi ilə doldurur.

Dövlətimizin qayğısı nəticəsində hər yerdə olduğu kimi, döyüş bölgəsində yerləşən hərbi hissələrdə də sözün həqiqi mənasında maddi-texniki təminat məsələləri yüksək səviyyədə həll olunub. Hərbi qulluqçuların xidmət və yaşayışı üçün gözəl şərait yaradılıb. Biz bir daha bunun şahidi olduq və gördüklərimizdən məmnun qaldıq.

***- Qoşunların təmas xəttində mövcud əməliyyat şəraiti və şəxsi heyətin xidməti barədə fikirlərinizi öyrənmək də yerinə düşərdi.***

- Cəbhəboyu zonada əməliyyat şəraiti ordumuzun tam nəzarətindədir. Şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji durumu, bölmələrimizin döyüş hazırlığı yüksəkdir. Düşmənin bütün fəaliyyəti müşahidə altındadır və onun ehtimal olunan bütün təxribatlarının qarşısını almağa Ordumuz tam hazırdır.

Hərbi qulluqçular üzərlərinə düşən vəzifənin əhəmiyyətini, vacibliyini düzgün qiymətləndirməyi bacarırlar. Şəxsi heyət torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi kimi müqəddəs vəzifəni uğurla yerinə yetirmək üçün daima döyüş hazırlıqlarını artırmaqda davam edir.

***- Hərbi qulluqçularla görüşünüz, söhbətləriniz zamanı hansı mövzular Sizin diqqətinizi cəlb etdi.***

- İlk olaraq onu qeyd edim ki, söhbətimizin leytmotivi əsasən hərbi vətənpərvərlikdən, yüksək döyüş ruhundan, şəxsi heyətin Ali Baş Komandana, Hərbi Anda, Vətənə sədaqətindən, dövlətimizin hərbi qulluqçuların xidməti-döyüş şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərin əhəmiyyətindən və şəxsi heyətin minnətdarlığından ibarət oldu.

Bilirsiniz, səngərdə gecə-gündüz Vətənə sinəsini sipər edən hərbi qulluqçular öz üzərində dövlətimizin diqqət və qayğısını hiss etdikcə, yaşam şəraitindən, ailəsindən, evindən, gələcəyindən nigaran qalmadıqca, onların öz peşəsinə, vəzifəsinə və qarşısında qoyulan tapşırıqların icrasına həvəsi, məsuliyyəti birə-on qat artır. Bu gün Ordumuzun şəxsi heyəti bu qayğını, arxayınlığı hiss edir və vicdanla, var gücü ilə Vətənə xidmətini davam etdirir.

Hamıya məlumdur ki, ölkə prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Vətən uğrunda şəhid olmuş hərbi qulluqçuların ailələrinə, döyüşlər zamanı yaralanmış hərbçilərimizə, hazırda xidmətdə olan hərbi qulluqçulara diqqət göstərir, hərtərəfli dəstək verir və onların qayğılarına həssaslıqla yanaşırlar. Bütün bunlar da təbii olaraq şəxsi heyətin məsuliyyətini, ruh yüksəkliyini artırır, ordumuzun döyüş əzmini daha da gücləndirir.

***- Hamımız şahidi oluruq ki, dövlətimizin iqtisadi gücü yüksəldikcə, ölkəmizin hərbi qüdrətinin, Ordumuzun döyüş hazırlığının artırılması istiqamətində də tarixi addımlar atılır, ən müasir silah, sursat və hərbi texnika alınaraq hərbi hissələrimizin istifadəsinə verilir. Bununla bağlı hərbi hissələrimizdə gördükləriniz barədə danışmanızı xahiş edərdik.***

- Tam düzgün vurğuladınız ki, dövlətimizin iqtisadi gücü yüksəldikcə Ordumuz üçün ən müasir silah, sursat və hərbi texnika alınır. Bu da təbii olaraq qoşunların döyüş qabiliyyətini qat-qat artırır və döyüş hazırlığının yüksəlməsinə öz müsbət təsirini göstərir. Cəbhə bölgəsində olarkən bütün bunların da canlı şahidi olduq.

Həqiqətən də hərbi hissələrimizdə ən müasir döyüş texnikası mövcuddur və şəxsi heyətin bunlardan bacarıqla istifadə edərək düşmən üzərində tam qələbəni təmin edəcəyinə əmin ola bilərsiniz.

***- Belə bir deyim var ki, “kadrlar hər şeyi həll edir”. Eyni zamanda ideoloji iş, yüksək döyüş ruhu və hərbi kollektivlərin mənəvi-psixoloji durumu da qələbənin əldə edilmsində əsas amillərdən biridir. Zabitlərimizin, kiçik komandir heyətinin, əsgərlərimizin peşəkarlığı, döyüş ruhu və mənəvi-psixoloji durumu Sizdə hansı təəssüratlar yaratdı?***

- Bildiyiniz kimi döyüş bölgəsində səfərdə olarkən bir sıra hərbi hissələrə və ön xətt mövqelərinə baş çəkdik. Zabitlərin xidmət, döyüş hazırlığı və əməliyyat şəraiti barədə məruzələrini dinlədik. Ən əsası bütün kateqoriyalardan olan hərbçilərin inamlı davranışı, yüksək döyüş ruhu, qələbə əzmi, mənəvi-psixoloji hazırlığı və peşəkarlığı diqqətimizi cəlb etdi.

Tarix göstərir ki, həqiqətən düşməni məğlub edərək qələbənin qazanılmasında əmri icra edən döyüşçülərin ideoloji hazırlığının, psixoloji durumunun vəziyyəti peşəkarlığı eyni dərəcədə əhəmiyyət kəsb edir. Zabitlərlə söhbət edərkən bu qənaətə

# "Ordumuzda keyfiyyət dəyişiklikləri göz qabağındadır və qürur hissi doğurur"

gəldik ki, Müdafiə Nazirliyinin rəhbərliyi qoşunların hazırlıq sistemində bəhs etdiyimiz məsələləri daim diqqətdə saxlayır.

Bu gün Azərbaycan Ordusunda aparılan ideoloji iş, mənəvi-psixoloji hazırlıq, şəxsi heyətdə yüksək əhval ruhiyyə və ruh yüksəkliyini təmin etməyə yönəldilən hərbi vətənpərvərlik tədbirlərinin bir məqsədi var. Bu da Vətənimizi düşməndən qorumaq, işğal edilmiş torpaqları azad edərək ərazi bütövlüyümüzü təmin etməkdir.

Hərbçilərimizin peşəkarlığından danışarkən deyə bilərəm ki, zabitlərimiz, kiçik komandir heyəti, əsgərlərimiz daima öz üzərində çalışır, qazanılan uğurlardan arxayınlaşmır, əksinə müntəzəm olaraq peşəkarlıqlarını artırmaqla məşğul olurlar.

Bildiyiniz kimi 2014-cü ildən başlayaraq Ali Baş Komandanımız cənab İlham Əliyevin göstərişinə əsasən döyüş təminatını müəyyən edən vəzifələrə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının intensiv qəbuluna başlanıldı. Bu addım peşəkar ordu quruculuğunun göstəricilərindən biridir. Ön xətt mövqelərində







müxtəlif vəzifələrdə 5, hətta 10 ildən çox müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbi qulluqçularla ünsiyyətdə olduqca, onların peşəkarlığı, bacarığı və döyüş hazırlığının yüksəldilməsinə verdikləri töhfəni gördükcə ölkə prezidentinin bu addımının nə qədər uzaqgörən və vaxtında qəbul edilmiş qərar olduğunun şahidi olduq.

Mətbuatdan da izlədiyiniz kimi Müdafiə nazirinin əmri ilə şəxsi heyət döyüş texnikasının təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılması üzrə tapşırıqları icra etdi. Döyüş hazırlığının yüksək olması, zabitlərin və kiçik komandirlərin peşəkarlığı, düzgün qərarlar qəbul edərək əmrlərin dəqiq icrasına nail olmaq bacarığı kimi müsbət keyfiyyətlər də bu tapşırığın uğurla icra edilməsinə zəmin yaradan amil kimi diqqətimizi cəlb etdi.

Həyəcan siqnalı ilə qaldırılma prosesini izlədikdən sonra tam səmimiyyətlə demək olar ki, Ordumuz müxtəlif qoşun növlərinin qarşılıqlı əlaqədə, uzlaşdırılmış hərəkət edən, yüksək döyüş hazırlığına malik vahid hərbi kollektivdir.



Sonda səfər zamanı gördüklərimizi bir cümlə ilə ifadə etmək gərəkdirsə, deyə bilərəm ki, xalqımızın güvənc yeri olan Ordumuz Ali Baş Komandanın istənilən döyüş əmrini yerinə yetirməyə tam hazırdır.

***- Ənənəvi olaraq sonda hərbçilərimizə arzularınız.***

- Fürsətdən istifadə edərək şəhid ailələrini, sağlamlığını itirən döyüşçülərimizi, hörmətli veteranlarımızı, Müdafiə Nazirliyinin rəhbərliyi başda olmaqla bütün şəxsi heyəti, mülki əməkdaşları, onların ailə üzvlərini və ən nəhayət bu an səngərlərdə ayıq-sayıq dayanan əsgər balalrımızı xalqımızın qədim tarixə malik Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinlərində yeni uğurlar arzulayıram.

# Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır

*Ölkə vətəndaşını koronavirusdan etibarlı müdafiə etmək istiqamətində əməli tədbirlər görməsi bunu bir daha təsdiq edir*



***Dünyada tüğyan edən koronavirus ("COVID-19") infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə, təxirəsalınmaz tədbirlər davam etdirilir.***

Dünya Səhiyyə Təşkilatının yeni növ koronavirusla bağlı verdiyi məlumata əsasən, dünya üzrə koronavirusa 219345 nəfər yoluxub, 8969 nəfər ölüb, 85745 nəfər isə sağalıb. Təbii ki, Azərbaycan da dünyanın bir parçası olduğundan, bu virusa yoluxma ölkəmizdə də aşkarlanıb. Bununla bağlı dövlətimiz tərəfindən qabaqlayıcı tədbirlər görülüb. Ölkəmizdə həyata keçirilən siyasət, ilk növbədə, vətəndaşın rifahının yaxşılaşdırılmasına yönəldiyindən, vətəndaşların təhlükəsizliyi təmin edilir.




Belə ki, Azərbaycan dövləti üçün insan amili hər zaman ən vacib amil olub, bü gün də belədir. Müxtəlif resurslardan əldə edilən gəlirlər, ilk növbədə, əhalinin sosial xərclərinə yönəldilir. Göründüyü kimi, vətəndaşların qayğı və problemlərinə hər zaman diqqətlə yanaşan Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən koronavirus infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin aradan qaldırılması və əhalinin sağlamlığının qorunması istiqamətində lazımi addımlar atılır. Bu gün də dövlətimiz tərəfindən koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi, bəzi sosial izolyasiya tədbirlərinin tətbiq edilməsi barədə qərarlar verilib və əməli tədbirlər reallaşıb. Dövlət tərəfindən tətbiq olunan qaydalar əhalinin təhlükəsizliyinin, sağlamlığının təmin edilməsinə yönəldilib. Hər bir vətəndaş qaydalara maksimum əməl etməyə çalışmalıdır. Koronavirusla bağlı məlumatlardan təşvişə düşmək deyil, bu təhlükənin yayılmasına, daha dəhşətli fəsadlar törətməsinə qarşı hər kəs birləşməlidir. Bildiyimiz kimi, ölkə başçısının tapşırığı ilə Nazirlər Kabineti yanında operativ qərargah yaradılıb, xüsusi tədbirlərin həyata keçirilməsi üçün Prezidentin Ehtiyat Fondundan 10 milyon manat vəsait ayrılıb. Vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin təmin edilməsi və hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. ÜST ekspertlərinin də qeyd etdikləri kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Ölkəmizin bu virusa qarşı mübarizədə həmrəylik göstərməsi ÜST tərəfindən də yüksək qiymətləndirilib. Bu gün Azərbaycanda epidemiyaya qarşı bütün tibbi ləvazimatlar var. Zəruri olan hər şey təmin edilib. "COVID-19" virusunun daha geniş yayılmasının qarşısının alınması məqsədilə təxirəsalınmaz profilaktik tədbirlər davam etdirilir. Azərbaycan dövləti öz vətəndaşlarının təhlükəsizliyinin təmin olunması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq bütün öhdəlikləri yerinə yetirir.

Nazirlər Kabineti yanında yaradılmış operativ qərargahın tövsiyələrinə, məsləhətlərinə, qərarlarına əməl etməli, tabe olmalıdır. Koronavirus xəstəliyinin ölkə ərazisində geniş yayılmasının qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın işinə dəstək olaraq, Heydər Əliyev Fondu tərəfindən müxtəlif ölkələrdən tibbi ləvazimatlar gətirilib. Xüsusi tibbi maskalar, əlcəklər, qoruyucu eynəklər, tibbi geyimlər və dezinfeksiyaedici vasitələr müvafiq tibb müəssisələrinə verilib.

Azərbaycanda əhalinin məlumatlandırılması məqsədilə www.koronavirusinfo.az informasiya portalının istifadəyə verilməsi də görülən tədbirlərin davamıdır. Koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşların, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımlara və görülən işlərə dəstəyi vacibdir.

Həyata keçirilən tədbirlər, bir daha göstərir ki, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, eləcə də, qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələlərdəndir. Azərbaycan dövləti öz vətəndaşının hər cür təhlükədən etibarlı müdafiə etmək istiqamətində əməli tədbirlər görməsi bunu bir daha təsdiq edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Serbiyanın yoxsul Ermənistanla əməkdaşlığı onun nüfuzunu zəiflədə bilər"

***"Serbiyanın bir Balkan ölkəsi olaraq Ermənistanla əməkdaşlığa üstünlük verməsinin əsas səbəbi iqtisadi-ticarət maraqlarından çox, tarixi, geosiyasi amillərə söykənir. Serblər də ermənilər kimi tarixən Osmanlı imperiyasının təbəəsi olmuş, türklərə qarşı daima üsyanlar qaldırmışlar". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib.***

O bildirib ki, doğrudur, ermənilər dövlətçiliyi olmayan xalq olduqlarından orta əsrlərdə bir çox ölkələrə səpələnərək, o cümlədən Serbiyada sənətkarlıqla məşğul olublar: "Digər bir tərəfdən, Serbiya Rusiyanın Balkanlardakı forpostu, Ermənistan isə Cənubi Qafqazdakı forpost ölkəsidir. Onların bağlayıcı həlqəsi Rusiyadır. Rusiya Cənubi Avropa və Cənubi Qafqazdakı tarixi-siyasi müttəfiqlərini daima bir arada tutmağa çalışaraq, özünün mərkəzi birləşdirici hegemon dövlət statusunu qorumağa çalışır. Buraya həmçinin Yunanıstan da daxildir".

Politoloq söyləyib ki, Serbiya həm də Cənubi Avropadakı slavyan ölkəsi olaraq Rusiya ilə yaxın münasibətlərə malikdirsə, Yunanıstan pravoslav məzhəbi nöqteyi-nəzərdən Rusiya ilə sıx bağlıdır və hər iki ölkə - Serbiya və Yunanıstan Ermənistanla hərbi əməkdaşlıq münasibətlərinə malikdirlər: "Hətta 1992-ci ildə Serbiya Ermənistanın müstəqilliyini tanısa da, iki ölkə arasında diplomatik əlaqələr Yunanıstan səfirliyi vasitəsilə həyata keçirilib. Ermənistan Serbiya ilə olan yaxın münasibətlərinə görə Kosovonun müstəqilliyini tanımır. 2019-cu ildə Serbiya Ermənistanda öz səfirliyini açdı. Ermənistan prezidenti Armen Sarkisyanın Belqrada rəsmi səfərindən sonra Serbiya Ermənistan vətəndaşları



üçün viza rejimini ləğv edərək, 90 gün müddətində onların Serbiya ərazisində qalmasına icazə verdi. Serbiyanın Novi Sad şəhərində serblərin EXIT və ermənilərin "Sevan startup" festivallarının paralel keçirilməsini hətta Ermənistan prezidenti Armen Sarkisyan Əbu Dabidə Serbiya bsş naziri Ano Brnabiçlə görüşdə məmnunluqla qeyd etmişdir. Ekologiya, informasiya və yüksək texnologiyalar, süni intellekt sahəsində iki ölkənin əməkdaşlıq perspektivləri müzakirə edilsə də, şübhəsiz ki, bizi narahat edən hərbi-texniki əməkdaşlıqdır".

N. Məmmədova vurğulayıb ki, nə Serbiya, nə Ermənistan böyük hərbi gücü olan ölkələr deyil, onlar Rusiyanın yardımları sayəsində bu sahəni inkişaf etdirməyə çalışırlar: "Serbiya NATO qarşısında öhdəlikləri olan, lakin heç bir hüququ olmayan ölkədir. Ölkə Skupşinası - silahlı qüvvələrin statusuna dair SOFA adlanan məxfi əməkdaşlıq sənədini ratifikasiya etməklə Alyans qarşısında öhdəliklər götürmüşdür. Serbiya yerləşdiyi regionda ən böyük silah idxalatçısıdır və Avropada Rusiyadan ən çox silah alan dövlətdir. Lakin ötən ilin dekabrında Belarus prezidenti Aleksandr Lukaşenkonun Belqrada səfəri zamanı Serbiya prezidenti Aleksandr Vuçiç ölkəsinin ümumiyyətlə silah alışından imtina edəcəyini bəyan etmişdir. Bu, yəqin ki, Serbiya və Ermənistan hərbi əməkdaşlıq əlaqələrinə də təsir göstərə bilər. Təbii ki, Serbiya özü separatizmdən zərər çəkmiş, ərazi bütövlüyü parçalanmış dövlət olaraq Azərbaycanın həssaslığını nəzərə almalıdır. Görünür, Rusiyanın təsiri burada öz sözünü deyir. Lakin bu əməkdaşlığın geniş vüsət alması inandırıcı deyil, çünki ölkə de-yurye olmasa da, de-fakto NATO üzvü sayılır, hərçənd bu, rəsmiləşməyib. NATO qarşısında öhdəlikləri olan Serbiyanın Kollektiv Təhlükəsizlik müqaviləsi təşkilatının üzvü Ermənistanla hərbi əməkdaşlığı o qədər inkişaf edə bilər ki, buna Qərb icazə versin".

O vurğulayıb ki, Serbiya həm də AB üzvlüyünə namizəddir və bunu nəzərə almalıdır: "Digər tərəfdən, Azərbaycan TANAP layihəsini Balkanlaradək genişləndirməyi bacarıb. Azərbaycan prezidenti İlham Əliyev Xorvatiyaya səfər edərək, Balkan yarımadasındakı Xorvatiyanın Cənub Qaz dəhlizində iştirakını təmin edərək, beləliklə müharibədən çıxmış yoxsul cənubi-şərqi Avropa ölkəsinin inkişafına dəstək göstərib. Belə olan halda, yoxsul Ermənistanla hərbi əməkdaşlıq Serbiyanın nüfuzunu daha da zəiflədə bilər"

***Nailə Məhərrəmova***

# Mart ayı üzrə pensiyalar vaxtından əvvəl ödənilib



Novruz bayramı ilə əlaqədar mart ayı üzrə bütün pensiyaların ödənişi qrafikdə nəzərdə tutulduğundan əvvəl, bayram ərəfəsində yekunlaşıb. SİA xəbər verir ki, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətinin rəhbəri Fazil Talıblı bildirib. "Ödənişin həyata keçirilməsinə hələ martın ilk həftəsində başlanılmışdı və bütün ölkə üzrə bu proses başa çatdı. Xüsusi rütbəli şəxslərin, hərbi qulluqçuların, dövlət qulluqçularının və b. da mart ayı üzrə pensiyaları ödənilib. Eyni zamanda, müavinət və təqaüdlərin də qrafikdə nəzərdə tutulduğundan əvvəl olmaqla bayrama qədərki günlərdə ödənilməsi təmin olunub", - deyə o, qeyd edib.

# Yanvarda ixrac və idxal olunan məhsulların həcmi açıqlanıb




Yanvarda ixrac və idxal olunan məhsulların həcmi açıqlanıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvarda 2019-cu ilin eyni ayı ilə müqayisədə mühüm məhsul növlərindən bitki yağlarının ixracı 9,3 dəfə, meyvə və tərəvəz konservləri 1,8 dəfə, meyvə və tərəvəz şirələri 1,7 dəfə, marqarin, qida üçün yararlı digər qarışıqlar 3,9 dəfə, kartof 17,3 faiz, polietilen 1,6 dəfə, emal olunmamış alüminium 5,1 faiz, pambıq ipliyi 3,7 dəfə, qara metallardan borular 25,3 faiz, bentonit gili 18,4 faiz artıb. Hesabat dövründə təzə meyvə ixracı isə 22,7 faiz, təzə tərəvəz 17 faiz, şəkər 44,5 faiz, tütün 67,1 faiz, çay 56,6 faiz, təbii üzüm şərabları və üzüm suslosu 87,3 faiz, pambıq lifi 11,7 faiz azalıb.

Ötən ilin yanvar ayı ilə müqayisədə bu ilin eyni ayında bitki yağlarının idxalı 6,8 faiz, çay 1,9 dəfə, kərə yağı, digər süd yağları və pastaları 40,3 faiz, təzə tərəvəz 8,5 faiz, minik avtomobilləri 2,5 dəfə, polad prokatı 47,6 faiz, qara metallardan çubuqlar 2,3 dəfə, hesablama maşınları, blok və qurğuları 1,6 dəfə, yük avtomobilləri 35,8 faiz, polietilen 30,9 faiz, avtobuslar 2 dəfə, paltaryuyan maşınlar 42,1 faiz, məişət soyuducuları 2,5 dəfə artıb.

# Azərbaycanda yeni gübrələrin istehsalına icazə verildi

AMEA-nın akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda yaradılan "Azofos" və "Azofos K" gübrələrinin istehsalı üçün İqtisadiyyat Nazirliyi tərəfindən xüsusi lisenziya verilib. Akademiyadan SİA-ya verilən məlumata görə, sözügedən gübrələrin AMEA-nın Yüksək Texnologiyalar Parkının rezidenti "İNKOR" MMC ilə birgə istehsal texnologiyası hazırlanıb. "İNKOR" MMC Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən gübrə təchizatçısı kimi qeydə alınıb və "Azofos" və "Azofos K" gübrələri Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində mineral gübrə siyahısına əlavə olunub. "Azofos" və "Azofos K" gübrələri müstəqil Azərbaycanda istehsalı təşkil olunan ilk iki (N, P) və üç (N, P, K) qida elementli gübrələrdir.

# Ermənistanda koronavirusla bağlı KİV-lərə müddətsiz məhdudiyyətlər qoyuldu

## “Sərhədsiz reportyorlar” bəyanat yaydı, erməni mediası hökuməti hədəfə alıb


Коллаж «Вестник Кавказа»

***Ermənistanda “COVID-19” koronavirus infeksiyasının yoluxma hallarının sürətlə artması ölkə daxilində ciddi çaxnaşmaya və panikaya səbəb olub. Vəziyyət nəzarətdən çıxmaqla yanaşı, hökumət növbəti atacağı addımlarının nədən ibarət olacağını bilmir, eləcə də ictimaiyyətin belə bir vəziyyətdə idarə olunması da problemlər yaradır.***

“Media advokat” təşəbbüsü fövqəladə vəziyyət zamanında KİV-lərin fəaliyyətinə qoyulmuş məhdudiyyətlərdən narahatdır və komendant Tiqran Avinyandan qısa zamanda, Ermənistanın Jurnalistlər İttifaqı və KİV redaktorları tərəfindən qaldırılmış məsələlərə aydınlıq gətirməsini tələb edir”.

Daha bir məsələ, Nikol Paşinyan hökumətinin fövqəladə vəziyyət elan etməsi ilə yanaşı, KİV-lərin fəaliyyətinə müddətsiz məhdudiyyətlər tətbiq etməsi vəziyyətidir. Artıq bununla bağlı təyin olunmuş komendant Tiqran Avinyan medianın fəaliyyətinin, demək olar ki, dayandırılması istiqamətində tədbirlər görməkdədir. Məhz bundan sonra ölkənin bir sıra ictimai-siyasi qurumları, media və hüquq üzrə təşkilatları qəbul edilmiş qərardan hiddətlənərək, bəyanatlar yaymaqdadırlar. Artıq “Sərhədsiz reportyorlar” təşkilatı da mövcud vəziyyətlə bağlı Ermənistan hökumətini hədəfə alıb.

### “Media advokat” təşəbbüs təşkilatı Ermənistan Jurnalistlər İttifaqının və KİV redaktorlarının bəyanatlarına dəstək verdi

“Ermənistanın “Media advokat” təşəbbüs təşkilatı Ermənistanın Jurnalistlər İttifaqının və KİV redaktorlarının bəyanatına tam dəstək göstərir və komendant Avinyanı qısa zamanda, qaldırılmış məsələlərə aydınlıq gətirilməsinə dəvət edir.” Bu barədə erməni mediası yazır.

“”Media advokat” hesab edir ki, fövqəladə vəziyyət zamanı beynəlxalq təcrübəni nəzərə alaraq, komendatura və hökumət, bütövlükdə, KİV-lərin azad fəaliyyəti üçün ən yaxşı şərait yaratmalıdır. Belə ki, media panikanın aradan qaldırılması və əhali ilə iş aparmaq üçün bir nömrəli köməkçi, müttəfiq və dostdur” deyə bəyanatda bildirilir.

### Bəyanat: “Fövqəladə vəziyyət zamanı xəbərlərin yayılmasındakı faktiki monopoliya komendaturanı kifayət qədər cavabdehlik və məsuliyyət üzərində qoyur”

Adıçəkilən təşkilata görə, hazırkı məqamda bu kimi qərarları qəbul edən fərdlərdə belə bir anlam mövcud deyil: “Xüsusilə, vurğulamaq lazımdır ki, fövqəladə vəziyyət zamanı xəbərlərin yayılmasındakı faktiki monopoliya komendaturanı operativlik və dəqiq informasiya baxımından kifayət qədər cavabdehlik və məsuliyyət üzərində qoyur. Məsələn, beynəlxalq xəbərlərin yayılmasına qoyulmuş qadağa, o demək deyil ki, hər hansı informasiya erməni ictimaiyyəti üçün əlçatmaz deyil. Hətta KİV-lər tərəfindən yayılan informasiyalar arasındakı kiçik fərqlər, ümumilikdə, rəsmi informasiyaların obyektivliyini şübhə altına ala bilər. Ona görə də,

### Sərhədsiz reportyorlar: “İnformasiya üzərində nəzarət epidemiya ilə mübarizəyə kömək etməyəcək, lakin şayiələrin və qorxunun yayılmasına şərait yaradacaq”

“Yaranmış şətin situasiyada komendatura dərhal yazılı şəkildə qaldırılmış bütün məsələlərə və suallara cavab verməli, KİV-lərə qısa zamanda, öz işlərini heç bir məhdudiyyət qoymadan, görmələri üçün şərait yaratmalıdır” deyilən bəyanatda, o da bildirilir ki, artıq Ermənistan KİV-lərinə qoyulmuş müddətsiz məhdudiyyətlər beynəlxalq tənqidə də məruz qalıb: “Biz “Sərhədsiz reportyorlar” beynəlxalq təşkilatının Ermənistanla bağlı” informasiya üzərində nəzarət epidemiya ilə mübarizəyə kömək etməyəcək, lakin şayiələrin və qorxunun yayılmasına şərait yaradacaq” düşüncələrini tam şəkildə bölüşürük. Bənzər problemlərdən yayınmaq üçün ən effektli vasitə qaldırılmış məsələlərə dərhal cavab vermək və KİV-lərlə partnyorluq etməkdir”.

*Rövşən RƏSULOV*

# ABŞ senatorları Səudiyyə vəliəhdinə təhdid məktubu göndəriblər yoxsa..?

***ABŞ-ın 13 nəfər senator qrupu Səudiyyə Ərəbistanının vəliəhdi Muhaməd ben Salmana məktub yazaraq ondan neft hasilatını artırmaq qərarını verməməyi xahiş ediblər. Bu barədə “Bloomberg” yazır. Məktubun bütün müəllifləri hakim Respublikaçılar Partiyasını təmsil edənlərdirlər. Senatorlar eyham vurublar ki, neft bazarında qiymətlərin aşağı düşməsi iki ölkə arasındakı çoxillik strateji partnyorluğu poza bilər.***



Senatorlar əsas problem olaraq, Ər-Riyadın koronavirusun qlobal pandemiyası baş verdiyi zaman bu cür fəaliyyətini əsas problem olaraq göstəriblər. “Vəziyyət, onsuz da, enerji bazarına və şirkətlərin stabilliyinə zərbə vurub. Ona görə də, neft bazarını artıqlaması ilə doldurmaq, ümumiyyətlə, yersizdir” deyə agentlik yazır.

Senatorlar xatırladıblar ki, ABŞ uzun illər Səudiyyə Ərəbistanını dəstəkləyiblər, lakin bunun cavabında krallıq dünya neft bazarında stabillik vədini verib. “Biz krallığı dünya iqtisadiyyatının sabitliyi baxımından konstruktiv rəhbərlik oyunu oynamağa çağırırıq və neft-qaz sektorundakı həyəcanı azaltmağa dəvət edirik” deyə sözügedən məktubda yazılıb.

Qeyd edək ki, dünya bazarında neftin qiymətinin aşağı düşməsi, Rusiyanın və başda Səudiyyə Ərəbistanı olmaqla, OPEK ölkələrinin hasilatın uzadılması məsələsində razılığa gəlməməsindən sonraya təsadüf edir. Krallıq tələb edirdi ki, hasilatın əlavə azaldılmasını 1,5 barrelə endirmək lazımdır. Lakin Moskva danışıq parametrlərini saxlamaq tərəfdarı kimi çıxış edib.

Nəticədə, 1 apreldən başlayaraq, razılıq sazişinə qoşulan ölkələr bütün məsuliyyətlərdən imtina ediblər. Bu fonda Səudiyyə Ərəbistanı bəyan edib ki, hasilatı sürətlə artıracaq və alıcılara rekord qiymət endirimləri edəcək. Səudiyyə Ərəbistanının nefti on milyon barrelə çatacaq. Halbuki ilin əvvəlində bu rəqəm 7 milyon idi. Aşağı qiymətlər Amerikanin neft şirkətlərinə güclü zərbə vuracaq. Nəticədə, həmin şirkətlər iflasa uğramaq təhlükəsi ilə qarşı-qarşıya qalacaqlar.

*RÖVŞƏN*

# Baş infeksionist: həkim əməyinə verilən bu dəyər bizi daha böyük fədakarlıqla çalışmağa sövq etdi



Hazırda bütün dünya ölkələri koronavirusla (COVID-19) mübarizəyə köklənib. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha ciddi tədbirlər görməyə sövq edir. Ölkəmizdə də bu virusun yayılmaması üçün bir sıra zəruri və təxirəsalınmaz tədbirlər görülür. Bununla əlaqədar olaraq qarşıdakı bir ayda kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Həmçinin dövlət və özəl sektorda çalışan vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmək tələb olunur.

Prezident İlham Əliyevin “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Sərəncamı əhalinin sağlamlığına və tibb işçilərinin sosial müdafiəsinə göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Ölkəmizin baş infeksionisti Cəlal İsayev bu sözləri AZƏRTAC-a verdiyi müsahibədə deyib. Onun dediyinə görə, hazırda təhlükəli vuruşa qarşı mübarizə hər bir ölkədə bir nömrəli məsələ olaraq qalır: “Qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər görülür. Dövlət başçısının verdiyi Sərəncam belə bir çətin, məsuliyyətli və həssas dövrdə sağlamlıq keşikçilərinin əməyinə verilən çox yüksək dəyərdir. Üstəlik həkim əməyinə verilən bu dəyər bizi daha böyük fədakarlıqla çalışmağa, infeksiyanın qarşısının alınması və görülən profilaktik tədbirlər nəticəsində ölkəmizin sakinlərinin maarifləndirilməsi və bu yolla onları təhlükədən uzaq tutmağa səfərbər etməyə yönəldib.

Yeri gəlmişkən deyim ki, Ümumdünya Səhiyyə Təşkilatı yerli və beynəlxalq ekspertləri cəlb etməklə ölkəmizə dəstək verir. Hazırda Azərbaycan hökuməti həmin təşkilatın tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib. Azərbaycan koronavirusun yayılmasının qarşısını almaq üçün ən qabaqcıl laboratoriya dəstlərini alan ölkələr sırasındadır. Eyni zamanda, ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ayırması bir çox ölkələr üçün nümunədir”.

Baş infeksionist onu da əlavə edib ki, pandemiyaya qarşı mübarizə aparıldığı bu günlərdə dövlətlə vətəndaşın həmrəy olması lazımdır, çünki tətbiq olunan qaydalar milli təhlükəsizlik və milli həmrəylik məsələsidir. Tutduğu mövqedən və baxışlarından asılı olmayaraq, hər bir vətəndaşdan maksimum şəkildə diqqətli və məsuliyyətli olmaq tələb olunur. Hər kəs bilməlidir ki, tətbiq olunan qaydalar onun və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin edən müvəqqəti və məcburi addımlardır.

# Son 1 il ərzində “Nar” abunəçilərinin internetdən istifadəsi 65% artıb




***Bütün ölkə əhalisini yüksək keyfiyyətli şəbəkə ilə təmin etməyi hədəfləyən “Nar”, abunəçilərini kəsintisiz və sürətli internet təcrübəsi ilə təmin etməkdədir. Belə ki, mobil operatorun təqdim etdiyi yüksək keyfiyyətli internet xidməti nəticəsində internet trafikinin həcmi son 1 il ərzində 65% yüksəlib. Qeyd edək ki, artıma bütün ölkə ərazisində LTE/LTE-A texnologiyalı baza stansiyalarının genişlənməsi, smartfon penetrasiyasının artımı, eləcə də müştərilərin internetə olan ehtiyaclarını qarşılamaq məqsədilə təqdim edilən məhsullar səbəb olub. Belə ki, son 1 il ərzində Bakı üzrə smartfon istifadəçilərinin sayı 15%, regionlar üzrə isə 14% artıb.***

“Nar”ın abunəçilərini keyfiyyətli internetlə təmin etməsi nəticəsində 4G istifadəçilərinin sayı 1 milyonu ötüb. Bununla da hər iki “Nar” abunəçisindən biri aktiv 4G istifadəçisidir. Hazırda 54 bölgə mərkəzini LTE texnologiyalı baza stansiyası ilə təmin edən mobil operator ölkə ərazinin 76%-ni (işğal olunmuş ərazilər istisna olmaqla), ölkə əhalisinin isə 93,2%-ni 4G/4.5G şəbəkəsi ilə əhatə edir.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

# Qədim tarixi köklərimizə söykənən NOVRUZ bayramı

***Dövlətin milli-mənəvi dəyərlərimizə olan münasibəti onun prioritet istiqamətlərindəndir. Müstəqil Azərbaycan dövlətinin mədəniyyət siyasəti, islami dəyərlərə yeni prizmadan baxış kimi meyilləri ictimai düşüncənin formalaşmasında özünü göstərir. Bu amillər zaman-məkan kontekstində həllini tapmaqdadır. Dünyada gedən qloballaşma və inteqrasiya prosesində öləkəmiz uğurlu gələcəyi təmin etmək üçün tarixi köklərimizə söykənir. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasəti və xalqa göstərdiyi yüksək diqqət və qayğısı Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədinə istiqamətlənmişdir.***

Son illərdə Azərbaycanın milli-mənəvi mədəniyyətinin tarixi mənzərəsinə nəzər salaraq, onun əsas inkişaf vasitələrini üzə çıxarmağa çalışsaq, hər şeydən əvvəl, mövcud amillərin rol oynadığını görərik. Dünyada milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutub. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olub ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub-saxlaya bilmişdir. Bu zəngin irsdə xalqın soykökünə bağlı olan adət-ənənələr yaşayaraq, əsrimizə və yeni yüzilliyə qədər gəlib çatmışdır. Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri və yas mərasimləri onun milli-mənəvi dəyərlərini özündə yaşadır.

### MİLLİ BAYRAMIMIZ QORUNARAQ, NƏSİLLƏRDƏN-NƏSİLLƏRƏ ÖTÜRÜLMƏKLƏ SAXLANILMIŞDIR

Bütün həyatını Azərbaycan xalqının rifahına və çiçəklənməsinə sərf etmiş Ümummilli Liderimiz Heydər Əliyevin sovet hakimiyyəti illərində Azərbaycana birinci rəhbərliyi dövründə xalqımızın yaddaşında özünə yuva qurmuş Novruz bayramı milli-mənəvi xüsusiyyətləri və dəyərləri özündə əks etdirməklə, dövlət səviyyəsində qeyd edilmiş, bununla da, imperiyanın sərt qadağalarına baxmayaraq, milli bayramımız qorunaraq, nəsillərdən-nəsillərə ötürülməklə saxlanılmışdır. Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra, xalqın təkidi və tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin, bilavasitə səyləri nəticəsində, Novruz bayramı dövlət bayramı elan olunmuş, Onun iştirakı ilə milli bayramımız ümumxalq şənlikləri çərçivəsində yüksək təmtəraqla qeyd edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin adət-ənənələrimizin və milli-mənəvi dəyərlərimizin qorunması sahəsində fəaliyyətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi və tapşırığı əsasında hər il dövlət və milli bayramlarımız, xüsusilə, Novruz bayramımız (məlum səbəbdən, bu il istisna olunmaqla) ildən-ilə daha yüksək təmtəraqla qeyd edilərək, xalqımızın silinməz yaddaşına həkk olunmaqdadır.

### MİLLİ ADƏT-ƏNƏNƏLƏRİMİZİN DÜNYƏVİLİYİNİ ONA İRQİNDƏN, DİNİNDƏN ASILI OLMAYARAQ,

### BÜTÜN MİLLƏTLƏRİN MARAQ GÖSTƏRMƏSİ TƏSDİQLƏDİ

Ümummilli Lider Heydər Əliyevin ideyalarının qorunması və davam etdirilməsində rolu olan Heydər Əliyev Fondunun da bu istiqamətdəki məqsədyönlü



fəaliyyətini qeyd etməliyik. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın milli-mənəvi dəyərlərinin dünyaya inteqrasiya olunmasında böyük əhəmiyyətə malikdir. Heydər Əliyev Fondu ölkənin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə Ümummilli Liderin zəngin irsindən bəhrələnərək, bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşması nail olur. Azərbaycanın məxsusi dəyərlərinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı planlı işlər həyata keçirir.

Mehriban xanım Əliyevanın, bilavasitə təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən tədbirlər ölkəmizin dünya ictimaiyyətinə tanıdılması, xalqımızın maddi-mənəvi irsinin və milli adət-ənənələrinin təbliği sayəsində atılan ciddi addımlardır. Azərbaycan xalqının milli sərvəti olan muğam və aşıq sənətindən sonra, milli adət-ənənələrimizi özündə əks etdirən və öz orijinallığı ilə seçilən Novruz bayramımız 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmiş, 2010-cu il 23 fevralda isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Novruz bayramının YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi və Beynəlxalq Novruz Günü elan edilməsi milli adət-ənələlərimizin dünyəviliyini, bəşəriliyini, ona irqindən, dinindən asılı olmayaraq, bütün millətlərin maraq göstərməsini təsdiqlədi. Bu, Azərbaycanın tarixiliyini, özünəməxsusluğunun dünyada işıqlandırılmasına və irsin bəşəriliyini ifadə edən faktor kimi ortaya qoyulması ilə səciyyələndi. Beynəlxalq çərçivədə qəbul edilən Azərbaycan milli xəzinəsi dünyanı təəccübləndirmək iqtidarındadır.

### NOVRUZ BAYRAMI TƏBİƏTLƏ BAĞLI SU, OD, YEL, TORPAQ İLƏ BAĞLI DÖRD ƏSAS ARXAİK XÜSUSİYYƏTLƏRİ ÖZÜNDƏ SAXLAYIR

Hər il müsəlman dünyasının həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü və adət-ənənələrini özündə yaşadır. Bayramın qeyd olunmasına qədər, bildiyimiz kimi, dünyanın və insanın yaranması ilə bağlı müqəddəsləşdirilmiş Su, Od, Yel və Torpaq çərşənbələri qeyd olunurdu. Xalqın erkən düşüncəsində yaratdığı çərşənbələrlə bağlı ayin və etiqadları, adət-ənənələri yaşatmaq hər kəsin mənəvi dünyasının tələbatından irəli gəlir. Dörd Çərşənbənin qeyd olunmasının arxasında həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır. Novruz bayramı təbiətlə bağlı Su, Od, Yel, Torpaq ilə bağlı dörd əsas arxaik xüsusiyyətləri özündə saxlamaqla yanaşı, cəmiyyətdə humanist insani münasibətlərin məntiqini ifadə edən bəşəriliyilə seçilir.

Minilliklərin sınağından çıxaraq, bu günə gəlib çatmış Novruz bayramını hələ Azərbaycan xalqı Sasanilər dövlətinin tərkibində olduğu zaman qeyd edib. Daş dövrünə aid olan əşyalar qazıntılar zamanı əldə olunan mənəvi mədəniyyət abidələrimiz Novruz bayramının qədim tarixi olduğunu təsdiqləyən amillərdir. Azərbaycan klassikləri olan Nizami Gəncəvi, Şah İsmayıl Xətai, Əfzələddin Xaqani kimi dahilərimiz baharın gəlişini əks etdirən nümunələr yaratmışlar. Novruz bayramının yaranması tarixinə həsr olunmuş yazılardan Nizamülmülkün "Siyasətnamə"sini və Ömər Xəyyamın "Novruznamə"sini və başqalarını nümunə olaraq göstərmək mümkündür.

Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının günü-gündən artması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır. Beynəlxalq ictimaiyyətin diqqət və maraq mərkəzində olan, Azərbaycan xalqının adət və ənənələrini, milli-ənənəvi xüsusiyyətlərini özündə əks etdirən, soydaşlarımıza və ölkə vətəndaşlarımıza sevinc bəxş edən Novruz bayramı dövlət səviyyəsində qeyd olunur. Xalqımız bu gözəl bayramı gözəl nəticələrlə, yaxşı əhval-ruhiyyə ilə qarşılayır. Ölkəmiz hərtərəfli inkişaf edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək, qurub-yaratmaq əzmimizi artırır: "Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir". Təbii ki, 2020-ci il də, ondan sonrakı illər də ölkəmiz üçün uğurlu olacaq.

Novruz bayramınız MÜBARƏK! Bu bayram hər bir ailəyə bol ruzi və sevinc bəxş etsin!

***ZÜMRÜD BAYRAMOVA***

## Novruz çələngi

*Novruz gəldi, yaz gəldi*

Küləklər qovduqca dumanı-çəni,
Yaşıllıq bürüyür çölü-çəməni.
Süfrəyə yaraşıq dürlü səməni,
Badam çiçəklərdən qurşayaraq zər,
Bizə gətirməkdə Novruzdan xəbər.

Böyük təmtəraq hər evdə-eşikdə,
Ab-hava dəyişib dərədə-dikdə,
Qurar yuvasını şanapipik də,
Qaranquş süzməyi rəvan eyləyər,
Alçaqdan uçaraq cövlan eyləyər.

Yalançı çərşənbə planlarını
Qurub, yaymaqdadı yalanlarını...
Tovlayıb filankəs-filanlarını,
Novruzu şaşırdıb azdırmaqdaydı,
Yalanı tarixə yazdırmaqdaydı.

Yel Odu coşdurdu, Od cuşa gəldi,
Su Odu söndürdü, tüstü yüksəldi,
Hər üçü Topağın bağrını dəldi,
Dörd ünsür yaratdı bütövlük, vəhdət,
Bundan da cücərdi Novruz, nəhayət.

Göyə bülənd oldu od da, atəş də,
Torpaq məhsul verdi, getdi güzəştə,
Ekvator xəttini keçdi günəş də,
Çillələr-çətinlik tamam sovuşdu,
Novruzlu yeni gün bizə qovuşdu.

***Valeh Məhərrəmli***

## Suraxanıda 18 evdən oğurluq edənlər tutulub



Hövsan və Suraxanı qəsəbələrində evlərdən oğurluq edən şəxslər Suraxanı Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat nəticəsində saxlanılıblar. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyat zamanı əvvəllər məhkum olunmuş paytaxt sakinləri Samir Abdullayev və Hüseynağa Bağırov tutularaq istintaqa təqdim ediliblər. Araşdırma zamanı S.Abdullayevin Hövsan qəsəbəsində 10, H.Bağırovun Suraxanıda 8 mənzildən pul, qızıl-zinət, məişət əşyaları, təmir-tikinti alətləri oğurladıqları məlum olub.

Faktla bağlı saxlanılan şəxslər barəsində Suraxanı Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, əməliyyat-istintaq tədbirləri davam etdirilir. Bu şəxslərin əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə ərazi üzrə polis idarə, şöbə və bölmələrinə, habelə DİN-in 102 - Zəng Mərkəzinə məlumat verə bilərlər.

## Keçmiş məhkumdan narkotik vasitə götürülüb



Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Göygöl Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş E.Əsədov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 7 qramdan artıq, Üçtəpə kəndi ərazisində gizlətdiyi yerdən isə 475 qram marixuana aşkar edilərək götürülüb.

Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini A.Məlikov isə Pirallahı Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Şəxsi axtarış zamanı ondan 482 qram marixuana aşkarlanıb. Hər iki faktla bağlı araşdırma aparılır.

# Müharibələrdə yaralananların humanitar rəftar hüququ

Bu normaların tələblərinə riayət etməmək hüquq pozuntusu hesab olunur və sanksiya tətbiq edilməsi ilə nəticələnə bilər. Ona görə də, tibbi heyət beynəlxalq humanitar hüququn müəyyən etdiyi hüquq və vəzifələrini yaxşı bilməlidir. Çünki silahlı münaqişə zamanı onlar gözlənilmədən müxtəlif şəraitlərə düşə bilər və həmin şəraitdə hüquq və vəzifələrini necə həyata keçirməli olduqlarını bilməlidirlər. Həmin hüquq və vəzifələr silahlı münaqişələrin nə vaxt baş verməsindən asılı olmayaraq, tibbi heyətin bu münaqişənin qurbanlarına yardım göstərməli, yəni üzərlərinə qoşulmuş humanitar vəzifəni yerinə yetirməlidir. Tibbi heyətin üzərinə qoyulmuş vəzifələr himayədə olan şəxslərin hüquqları ilə, bilavasitə bağlıdır. Belə ki, yaralılarla humanitar rəftar vəzifəsi yaralının humanitar rəftar hüquqi ilə əlaqədardır. Heç bir hərbi əsiri stamotoloji və ya sağlamlıq vəziyyətinə əks olan tibbi təcrübəyə məruz qoymamaq vəzifəsi, hərbi əsirin fiziki və psixi toxunulmazlığına hörmət hüququ ilə əlaqədardır. Eyni zamanda, tibbi heyətin hüquqları onun mənsub olduğu dövlətin, həmçinin, münaqişədə tərəflərin müvafiq vəzifələri ilə sıx bağlıdır. Belə ki, tibbi heyətin mühafizə hüququ rəqibin həmin heyətə hörmət vəzifəsi ilə bağlıdır: eyni qaydada tibbi heyətin tələb olunan yerə buraxılması hüququ münaqişədə olan tərəfin həmin yerlərə onların buraxılmasına razılıq vermək vəzifəsi ilə əlaqədardır. Tibbi heyətin vəzifələri ilə əlaqədar, onu da göstərmək olar ki, bu vəzifələrin bir qismi fəaliyyəti, digər bir qismi isə fəaliyyətdən, çəkinməyi nəzərdə tutur. Məsələn, tibb işçisi xəstə və yaralının köməyə ehtiyacı olduqda fəaliyyət göstərməyə borcludur. Lakin tibb işçisi müəyyən fəaliyyətdən məsələn, yaralı və xəstənin maraqlarına zidd olan fəaliyyətdən çəkinməlidir. Digər tərəfdən hərəkətsizlik-xəstəyə lazımı yardım göstərməmək tibbi heyətin öz öhdəliklərini yerinə yetirməməsi kimi qiymətləndirilə bilər. Tibbi heyətə verilmiş hüquqlardan bəzisi münaqişədə olan tərəflərdən müəyyən fəaliyyət göstərməyi (tibbi heyətin öz vəzifələrini yerinə yetirməsi üçün onlara hərtərəfli kömək göstərmək) tələb etdiyi halda, bir qismi müəyyən hərəkətlərdən çəkinməyi (tibbi heyətə qarşı repressalinin yol verilməzliyi) tələb edir. Beləliklə, tibbi heyət müəyyən hüquqlara malik olduğu kimi, müəyyən vəzifələri də yerinə yetirməlidir. Yaralı, xəstə və gəmi qəzasına uğrayanlar, hərbi əsirlər və mülki əhali, yəni hərbi əməliyyatlarda, bilavasitə iştirak etməyənlər hər hansı şəraitdə humanitar rəftardan istifadə etməlidir. Göstərilən kateqoriyalı şəxslərin hamısı beynəlxalq humanitar hüququn mühafizəsindən istifadə etməlidir. Bu adamlara kömək göstərməli olan tibb işçiləri hər hansı şəraitdə humanist hərəkət etməli və öz vəzifələrini məsuliyyətlə yerinə yetirməlidirlər. Tibbi heyətin mühafizəsi onun üzvlərinin şəxsi imtiyazı deyil, silahlı münaqişə qurbanlarının himayəsi və mühafizəsini təmin etmək üçün nəzərdə tutulan müddəalardan doğan tələbdir.

Tibbi heyətə mühafizə, onların qarşısında duran humanitar vəzifələrin yerinə yetirilməsinin asanlaşdırılması üçün və yalnız həmin vəzifələrin yerinə yetirilməsi və ancaq onların yerinə yetirildiyi vaxtda verilir. Bu I CK-nın 25-ci maddəsinin məzmunundan bir daha aydın görünür. Həmin maddədə göstərilir ki, "yaralıların və xəstələrin axtarılması və ya toplanması, daşınması və ya müalicəsi məqsədilə zəruri hallarda sanitar, tibb bacısı və ya xərəkçi kimi fəaliyyət göstərmək üçün xüsusi təlim almış silahlı qüvvələrin üzvləri, düşmənlə rastlaşdıqları və ya onun elinə keçdikləri bütün hallarda həmin vəzifələri icra edirlərsə, onların fəaliyyətinə hörmət və himayə göstərilməlidir. Göründüyü kimi, normanın özündə mühafizə ancaq göstərilən şəxslər "həmin vəzifəni icra edirsə", təqdim olunur. Konvensiyanın himayəsi altında olan həkim bu mühafizədən fayda əldə etmək üçün istifadə edə bilməz. Tibbi heyət hər cür düşmənçilik hərəkətlərindən çəkinməlidir. Tibbi heyət mühafizə altına götürülür. Çünki o, kömək göstərməklə məşğul olduğu silahlı münaqişə zamanı neytrallığa riayət etməyə borcludur. Tibbi heyət neytrallıqdan kənarlaşdıqda, o, mühafizə hüququnu itirir.

"Neytrallıq" tibbi heyətdən hər hansı düşmənçilik hərəkətlərindən və ya geniş mənada, hərbi əməliyyatlara hər cür müdaxilədən çəkinməyi tələb edir. Məhz həmin şərtlər əsasında tibbi heyətə mühafizə təqdim olunur. Tibbi heyətə silah gəzdirmək və ondan ancaq özünümüdafiə və öz xəstə və yaralıların mühafizə etmək üçün istifadə etməyə icazə verilir. İlk baxışda tibbi heyətin yalnız humanitar missiyanı yerinə yetirməsi və özünün neytrallıq statusuna müvafiq olaraq, mühafizə olunması, onların silahlanması ilə uyğunsuzluq təşkil edir. Lakin tibbi heyətin silahlı münaqişə zamanı müxtəlif şəraitlərlə rastlaşa biləcəyi nəzərə alındıqda, onların özünü müdafiə silahları ilə silahlanmağının vacibliyi özünü təzahür etdirir. Silahlı münaqişə çox vaxt xaosa səbəb olur. Bu cür vəziyyət isə zorakılıq aktlarının-zorlama, soyğunçuluq və quldurluğun törədilməsinə şərait yaradır. Yaralı və xəstələrin bu cür əməllərdən müdafiəsinə tamamilə zəruri bir hal kimi baxılmalıdır. Bundan başqa, yaralı əsgərlər heç də həmişə tamamilə köməksiz olmurlar. Bu da tibbi müəsisələrin hamısında qayda yaradılmasını tələb edir. Başlıca olaraq, bu iki səbəbdən dövlət tibbi heyətin silahlanmasını tam istina etmir. Bununla yanaşı, tibbi heyət ancaq şəxsi silaha malik ola və ondan ancaq daxili məqsədlə istifadə edə bilər. Əgər tibbi heyət silah gücünə hücum əməliyyatlarına mane olmağa cəhd edərsə, o münaqişədə öz neytrallığını itirmiş hesab olunur. Lakin düşmən qəsdən yaralı və xəstələri və ya tibbi heyəti öldürməyə cəhd etdikdə, tibbi heyət silahdan istifadə etmək hüququna malikdir. Tibbi heyət tanınma nişanı və sənədlərə malik olmalıdır. 1864-cü il Konvensiyasının qəbul edilməsi ərəfəsində münaqişəyə cəlb edilməyən - "neytral" obyektin necə tanınması məsələsi də müzakirə obyektinə çevrilmişdi. O vaxtlar yalnız hərbi-tibb heyəti və ordu keşişlərindən ibarət himayə edilməli şəxslər qola taxılan sarğı gəzdirməli idilər. Ona görə də, 1864-cü il Konvensiyasının 7-ci maddəsinin 3- cü bəndində göstərilirdi ki, tanınma üçün "həm bayraq, həm də qola taxılan sarğı ağ fon üzərində qırmızı xaç ilə işarələnməlidir". Beləliklə, ağ fon üzərində qırmızı xaç ilə himayə bildirilməsi təşəkkülünü tapdı. 1929-cu il Konvensiyasında qeyd olunmuşdur ki, qırmızı xaç emblemi İsveçrə bayrağındakı rənglərin əks qaydada düzülməsi ilə yaranmışdır.

1949-cu ildə Konvensiyalara yenidən baxıldıqdan sonra ağ fonda qırmızı xaç işarəsi ilə hərbi və ya mülki xarakterli olmasından asılı olmayaraq, beynəlxalq hüquqla himayə edilmək hüququ verilən və hörmət edilən bütün şəxslər, binalar, nəqliyyat vasitələri işarələnir. 1977-ci il Protokolları qəbul olunduqdan sonra fərqləndirici nişanın uzaqdan görünməsinə xüsusi diqqət yetirilir. Mühafizədən istifadə edən bütün tibbi heyət işğal olunmuş ərazilərdə və ya döyüşlərin getdiyi və ya gedə biləcəyi ərazilərdə aydın görünən fərqləndirici nişanlar gəzdirməlidir. Bundan başqa, tibbi heyətin müvafiq vəsiqəsi olmalıdır. Müasir texnika görünüş dairəsindən kənarda olan hədəfə atəş açmaq imkanına malik olduğuna görə, görünmədən asılı olanlardan başqa, tanıma vasitələrindən də istifadə olunması zəruridir. 1-ci Əlavə Protokola texniki əlavədə müəyyən siqnallardan istifadə etmək nəzərdə tutulmuşdur. Həmin siqnallar tanıma vasitələrini hərbi texnika sahəsində müasir nailiyyətlərə uyğunlaşdırmağa imkan yaradır. Məsələn, uçan sanitar aparatları, artıq mavi işıq siqnalı ilə tanınmalıdır. Tanınma üsulları sırasına radiosiqnallar və ya ikinci dərəcəli radar sistemlərindən istifadə olunması da daxil edilmişdir. Bu cür tanıma vasitələri uçuş aparatları üçün xüsusi ilə əhəmiyyətlidir. Qospital gəmiləri özünü xüsusi radiosiqnallar vasitəsilə tanıtmalıdır.

Beynəlxalq humanitar hüquq pozuntusu törətmiş tibbi heyət cəzalandırılmalıdır. Beynəlxalq humanitar hüquq normalarının pozulması özündə bu hüquqa riayət olunmamasını əks etdirir və Konvensiyanın iştirakçısı olan dövlət bu pozuntuların qarşısını almağa borcludur. Bir qayda olaraq, beynəlxalq humanitar hüququn daha mühüm normalarının pozulmasına görə daxili cinayət qanunvericiliyində sanksiyalar nəzərdə tutulur. Beynəlxalq humanitar hüquq bir sıra normaların tələblərinin pozulmasının ciddi pozuntusu kimi müəyyənləşdirir. Belə hallarda, beynəlxalq humanitar hüquq təkcə pozuntuların qarşısının alınmasını deyil, həm də təqsirli şəxslərin cinayət məşğuliyyətinə cəlb edilməsini tələb edir. Qeyd etmək lazımdır ki, ciddi pozuntular hərbi cinayətlər hesab olunur və müddətindən və törədildiyi ərazidən asılı olmayaraq, cəzalandırılmalıdır. Tibbi heyət tərəfindən vəzifələrini yerinə yetirərkən, törədilmiş pozuntular beynəlxalq humanitar hüququn mühafizəsi altında olan şəxslər və obyektlərə qarşı yönəldikdə həmin hüququn ciddi pozuntusu kimi qiymətləndirilir. Bu cür pozuntulara aşağıdakılar aid edilir.

- qəsdən adam öldürmə;
- bioloji eksperimentlər, digər tibbi və ya elmi təcrübələr daxil olmaqla, işgəncə və ya qeyri-insani rəftar;
- qəsdən böyük əzab yetirmə, sağlamlığa və ya şəxsiyyətə ciddi ziyan vurma;
- həmin şəxslərin fiziki və ya psixi vəziyyəti üçün ciddi təhlükə yaradan qəsdən törədilmiş hər hansı hərəkət ya hərəkətsizlik. Qeyd etmək lazımdır ki, qan verilməsi və ya dəri götürülməsinə donorun razılığı ilə icazə verilir. Bu razılıq məcburiyyət yolu ilə alınmamalı və ancaq müalicə məqsədi daşımalıdır;
- ölümə və ya fiziki vəziyyətə, sağlamlığa ciddi ziyan vurulmasına səbəb olduqda, Qırmızı Xaç və Qırmızı Aypara fərqləndirici nişanlarından və ya digər tanınmış fərqləndirici nişan və ya siqnaldan xəyanətkarcasma istifadə etmək.

Konvensiya iştirakçısı olan hər bir dövlət bu cinayətləri törətmiş və bu barədə əmr vermiş şəxsləri axtarmalı və cinayət məsuliyyətinə cəlb edilməsini təmin etməlidir.

3.Silahlı münaqişə zamanı tibbi etika prinsipləri. Silahlı münaqişə zamanı öz xidmətini təqdim edən tibbi heyət sülh dövründə olduğu kimi, tibbi etika prinsiplərinə riayət etməyə borcludur. Tibbi etika prinsipləri həkimin peşə borcudur. İlk dəfə bu prinsiplər "Hippokrat andı"nda öz ifadəsini tapıb. Bu andı hər bir həkim bilməlidir. 1948-ci ildə Ümumdünya Tibb Assosiasiyası bu andın müasir variantını

"Cenevrə andı" adı altında hazırlamışdır. Həmin anda əlavə olaraq, "Beynəlxalq Tibb Etikası Məcəlləsi" qəbul edilmişdir. Ümumdünya Səhiyyə Təşkilatı da Tibbi Etika Məcəlləsi layihəsini hazırlamışdır. BMT Baş Məclisi 27 noyabr 1981-ci il qətnaməsində (35/179) İqtisadi və Sosial Şuraya bu layihəni öyrənməyi və XXXVI sessiyasının təsdiqinə verməyi xahiş etmişdir.

Bu sənədlər dövlətlər tərəfindən qəbul edilmədiyinə görə, beynəlxalq münasibətlərdə hüquqi qüvvəyə malik deyildir. Buna baxmayaraq, onlar geniş surətdə tanınmışdır. "Cenevrə andı"na əsasən, həkim aşağıdakıları öhdəsinə götürür:

- peşə borcunu vicdan və ləyaqətlə yerinə yetirəcək;
- xəstələrin sağlamlıq vəziyyətini özünün əsas qayğısı hesab edəcək;
- ona etibar edilmiş sirri yaymayacaq;
- öz borcunu yerinə yetirərkən, heç bir dini, milli, irqi, siyasi və ya sosial aul seçkiliyə yol verməyəcək;
- insan həyatının mütləq dəyərini tanıyacaq;
- hətta hədə-qorxu altında tibbi biliyini insanpərvərlik qanunlarına qarşı istifadə etməyəcək.

1957-ci ildə BQXK, Beynəlxalq Hərbi Tibb və Əczaçılıq Komitəsi və Ümumdünya Səhiyyə Təşkilatı "Müharibə vaxtı üçün tibbi etika qaydaları" və "Silahlı münaqişələrdə yaralı və xəstələrə yardım göstərmə qaydalarını təsdiq etdi. Həmin sənədlər silahlı münaqişə şəraitində tibbi vəzifələrin yerinə yetirilməsinin əsas qaydalarını müəyyənləşdirir. Orada göstərilir ki, tibb sənətinin başlıca vəzifəsi insanın həyat və sağlamlığının mühafizəsini təmin etməkdən ibarətdir:

- adamlar üzərində təcrübələr qadağandır;
- ekstremal şəraitdə tibbi yardım tibbi zərurətə müvafiq və tibbi zərurət istisna olmaqla, hər hansı bir mülahizədən asılı olmayaraq, fərq qoyulmadan göstərilməlidir.

**Vahid Ömərov,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# AXCP-Müsavata - tarixi düşmənçiliyin acı aqibəti

*Radikalçılığı yalnız bu cür aqibət gözləyir*

***Seçkilər ərəfəsində AXCP və Müsavat partiyaları arasındakı qarşıdurmalara müəyyən pauza verilsə də, seçkidən sonra acınacaqlı vəziyyət yenidən alovlanmağa başlayıb.***

Nə vaxta kimi? Dərdləri nədir? Nə qədər köhnəlmiş, çeynənmiş "iddialar" olar və bununla nəyi sübut etmək istəyirlər? Hər iki radikal müxalifət partiyalarının bir-birlərini qəbul etmələrinin arxasında dayanan köklü səbəblər yenə də "ana müxalifət"çilik, "liderlik" iddiaları. Necə deyərlər, boş çanağı dolu çanağa vurmaqla, nə əldə olunub ki, bundan sonra da nə əldə oluna. Halbuki ictimai rəy nə Müsavatı, nə də AXCP-ni, nəinki "ana müxalifət", heç normal müxalifət partiyaları kimi qəbul etmir, onda ola "liderlik".

Neçə illərdir ki, AXCP özünü "ana müxalifət"çilik, "lider"lik davasını aparırsa, niyə o zaman Mərkəzi Seçki Komissiyasına 2019-cu il üzrə maliyyə hesabatı verən partiyaların siyahısında adı yoxdur? Ancaq bir məqamı xatırlatmaq istərdik ki, MSK aprelin 1-dək illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Ədliyyə Nazirliyinə məlumat verməlidir.

### Məhz bu faktor AXCP-nin sonunu çatdırır

Bu gün dünyanın müasir və inkişaf edən siyasi arenasında AXCP kimi partiyaların fəaliyyət göstərməsi, daha dəqiq desək, "fəaliyyət göstərmək" adı altında yalnız fərdi maraqlara xidmət etməsi onların aşkar simalarını ifşa edir. Bu ifşa isə, bir daha AXCP-Müsavat arasında bolşevizm ideologiyası ilə menşevizm arasında cərəyan edən hadisələrin inikasını, əksini cəbhəçilərlə müsavatçılarda görmək elə də çətinlik yaratmır.

Çünki bolşevik və menşevik təfəkkürü bu partiyaların daxillərinə artıq o qədər hopub ki, hətta sədrlər kiçik bir etirazlı hal gördükdə, dərhal xoflanır, kürsülərinin əldən veriləcəyindən ehtiyat etməyə başlayırlar.

Məsələn, A.Hacılı başqan seçildiyi gündən sosial şəbəkədə açdırdığı və partiyasna aid olan qapalı səhifədə belə bir qeyd etdirib: "Bizə dönük çıxıb getmiş adamların yazılarına dəstək verməyi, xeyir işlərində yanlarında olmağı, barələrində təriflər yazmağı tərgidin. Nəzərə alın ki, bu yolla dönüklüyə stimul verirsiniz".

Bu amil isə, həmin təfəkkürlə hakimiyyətə can atmağın yersiz iddia olmasını bir daha sübuta yetirir. Partiyadaxili müxalifətçiliyə dözümsüzlüyün nümayişi, məhz belə nəticəyə gəlməyə imkan yaradır.

### Arif Hacılı yenidən sabiq müsavatçıların hədəfində

Yeri gəlmişkən, Müsavatı tərk edib getmiş şəxslər də bu tələbi aşkarladıqdan sonra onu "skrin şot" edib paylaşıblar. Bundan sonra isə, A.Hacılını kəskin tənqid kampaniyasına başlanılıb. Keçmiş müsavatçılar Hacılını diktatorluqda ittiham edirlər. Onlar qeyd edirlər ki, partiyanı "bizim kimi düşünməyən bizdən deyil" prinsipiylə idarə edən diktator başqan, partiya daxilində növbəti parçalanmanın əsasını qoyub. Bu səbəbdən, çox yaxın vaxtlarda partiyadan kütləvi istefaların başlayacağı da iddialar arasındadır.

Qeyd edildiyi kimi, AXCP sədri Ə.Kərimlidə də eyni hal yaşanır. Çünki ölkə müxalifətinin sıradan çıxmasında əsas rol oynayan bu məsələnin ilk yaradıcıları Ə.Kərimli sonradan həmin keçici sindromu "liderlik" iddiasında olan digər partiya sədrlərinə də yoluxdurub. Əlbəttə ki, bu tipli ambisioz mövqelər cəmiyyətdə müxalifətə qarşı itirilmiş inamı, ümumiyyətlə, yox edir, nəticədə, digər müxalifətin daha da dərindən parçalanması prosesi sürətlənir. AXCP sədri ilə bağlı daha bir vacib ittihamı irəli sürmək mümkündür. Məsələn, AXCP ilk partiyalardandır ki, "Yurd" qrupunun rəhbəri olmuş Kərimlinin ambisiyaları üzündən həmin təşkilat parçalanmağa başladı və ölkədə parçalanmış partiyadan digər partiyaların yaranmasına səbəb olan vəziyyət yaşandı. Daha dəqiqi, partiyaların əksəriyyətinin digərlərinin parçalanmasından yaranması ənənəsinə start verildi. Nəticədə, bir partiya digərini rəqib kimi deyil, düşmən gözündə görür, bu halda isə, hansısa məqsəd üçün bir yerə toplaşmağa imkan vermir. Son günlər biz bir daha həmin vəziyyəti yetərincə müşahidə etmişik.

Politoloq Qabil Hüseynli partiyalararası qarşıdurmaya münasibət bildirərkən, vurğulayıb ki, əslində, müxalifətə başqa bir düşmən lazım deyil: "Çünki düşərgə təmsilçiləri özləri-özlərinə ən ağır zərbəni endirirlər. Müxalifətin içində elələri var ki, onlar öz əməlləri ilə düşərgəyə daha çox zərbə vururlar. Dağıdıcı müxalifət partiyaları daxilində ciddi siyasi fikir ayrılıqlarından yaranan parçalanmalar, kütləvi istefalar baş verir. Partiyalar yeniləşmədən, partiya liderləri öz postlarına yeni baxışlı, siyasi dünyagörüşlü şəxslər yetişdirmədən, prosesləri irəliyə doğru aparmaqda ciddi çətinliklərlə üzləşəcəklər".

Beləliklə, Müsavat-AXCP siyasi arenada uğursuz yolun sonuna çoxdan gəlib və radikalçılığı yalnız bu cür aqibət gözləməlidir!

***Rəfiqə HÜSEYNOVA***

# Əli Kərimli və onun xor qrupu?

*Natiq Cəfərli partiyadaşı olan deputat Erkin Qədirliyə görə AXCP və "Milli Şura"ya qarşı hücuma keçdi*

***"REAL" partiyasının funksioneri Erkin Qədirlinin parlamentə deputat seçilməsi hələ də AXCP sədri Əli Kərimlini dinc oturmağa qoymur. Daha dəqiq desək, onun həm AXCP-dəki, həm də "Milli Şura"dakı trolları sosial şəbəkədə "REAL"a qarşı hücumlarını daha da artırıblar.***



Xatırlatmaq olar ki, əslində hər iki siyasi təşkilat "liderləri" arasında gedən savaş indi başlamayıb, bu savaşın köklü səbəbləri də var. Çünki özlərini "cümhuriyyətçi" adlandıran "REAL" üzvləri ilə "aşırı sağçı" olan AXCP-çilər arasında siyasi baxış fərqləri də mövcuddur.

### Əli Kərimli və ətrafı E.Qədirlini mandatdan imtinaya çağırır

Başqa tərəfdən, daha bir fakt budur ki, "Milli Şura"nın mitinqləri zamanı "REAL" təmsilçiləri həmin mitinqlərə qatılmaqdan imtina ediblər. Partiya sədri İlqar Məmmədov azadlığa çıxandan sonra bir dəfə mitinqə qatılıb və ondan sonrakı aksiyaları rədd edib.

Beləliklə, tərəflər arasında yaranan qarşıdurma da belə deməyə əsas verir ki, AXCP, bütövlükdə, hər hansı müxalifət partiyasının yarım addım belə, irəli getməsinə razı deyil və bunun müqabilində özünü düşərgənin "ana müxalifəti" kimi sırıyır. Üstəlik, Ə.Kərimli və ətrafı E.Qədirlini mandatdan imtinaya çağırır, eyni zamanda, guya saxta yolla seçildiyini iddia edirlər. Bu planlarının da təsirsiz olduğunu görəndən sonra "REAL"çı deputatı ələ salır və onu məsxərəyə qoyurlar.

### Erkin Qədirli: "Ciddi məlumatları şit zarafata çevirirlər"

Əlbəttə ki, E.Qədirli də boş dayanmır və sosial şəbəkə vasitəsilə ona hücum planı qurmuş kərimovçulara cavab verir. Məsələn, "Sosial şəbəkələr və digər məlumat məkanları yoxlanılmamış, təxribatsayağı yalan məlumatlarla doludur. Ciddi məlumatları şit zarafata çevirirlər. Yalanın qarşısına həqiqətlə çıxmaq lazımdır. Ən çətini inandırıcılıqdır" deyə yazan müxalifətçi deputat onun hər hansı fikirlərinin də cəbhəçi trollar vasitəsi ilə təhrif edildiyini bildirir.

### "Bir kiçik xor qrupu var, partiya nə etsə, eyni mövqedən qərəzli çıxış edəcək... Amma getdikləri qısa yoldur və dalana dirənəcək"

Ə.Kərimliyə və ətrafında daha sərt cavab verənlərdən digəri - "REAL"ın icraçı katibi N.Cəfərli olub. Onun sözlərinə görə, onlar sayca azdırlar, amma mərəkə qoparmağa çalışırlar. N.Cəfərli hesab edir ki, bu, həm partiyaya, həm E.Qədirliyə olan qərəzli münasibətin göstəricisidir. "Biz işimizlə, siyasətlə məşğuluq" deyə qeyd edən Cəfərli real işlə məşğul olduqlarını bildirib: "Biz siyasətlə məşğuluq, bəziləri qeyrciddi işlər görürlər. Onların bir hissəsi xaricdə yaşayır, bəziləri siyasi təşkilatların üzvləridir. Onların gözləmədiyini Erkin Qədirli dilə gətirir. Ona görə də, bütün bu mənzərə üzücü haldır".

Söz yox ki, ortada qeyri-sağlam yanaşma da var və bu yanaşmaların, məhz Ə.Kərimliyə və ətrafında aid olduğuna eyham vuran N.Cəfərli daha sonra yazıb: " Ancaq bəziləri savadsızdır, sözləri başa düşmürlər. Bir kiçik xor qrupu var, partiya nə etsə, eyni mövqedən qərəzli çıxış edəcək... Amma getdikləri qısa yoldur və dalana dirənəcək".

Beləliklə, qarşıdurmalar fonunda davam edən söz atışmaları bu gün də davam edir, ancaq bu qarşıdurmalardan Ə.Kərimlinin uduzan tərəf kimi dala çəkiləcəyi də, əslində, gözləniləndir. Çünki ondan fərqli olaraq, konstruktivlik mövqeyi sərgiləyən "REAL" partiyası son anda ona hücum edən AXCP və "Milli Şura"ya qarşı radikal planlar da icra edə bilər. Misal üçün, məhkəmələrə müraciət edərək, onların təhqir olunmasını, sosial şəbəkələrdə təhqir obyektinə çevirdiklərini deyib, qarşı tərəfi susdura bilər. Görünür, hadisələr də, məhz həmin məcrada inkişaf edir...

***Rövşən RƏSULOV***

# İqtidar-müxalifət münasibətlərində yeni istiqamət

*Bəs düşərgə nə düşünür?*

***Son vaxtlar ölkənin ictimai-siyasi həyatında baş verən müxtəlif hadisələr fonunda, ən çox danışılan mövzulardan biri də iqtidar-müxalifət dialoqudur. Belə ki, zaman-zaman bir sıra ümummilli maraqlar kontekstində iqtidarın təşəbbüsü ilə bənzər görüşlər keçirilib və müəyyən addımlar atılıb. Belə görüşlərdən imtina edən və özlərini radikal cinaha aid edən siyasi müxalifət partiyaları da var ki, onların fəaliyyətləri nə xalq, nə də, bütövlükdə, ictimai rəy tərəfindən qəbul olunmur.***

### Konstruktivlik yönündə siyasət yürüdən müxalifət parityaları da var ki, məqsədləri dövlətin siyasi və s. cəhətdən inkişafında səmərə vermək maraqlarından ibarətdir



Daha dəqiq desək, dağıdıcılıq prinsipi üzərində "siyasət yürüdən" həmin müxalif təşkilatları, eyni zamanda, özlərini xalqdan təcrid etməklə yanaşı, dövlətçilik maraqlarına xələl vuran qurumlar adını qazanıblar və "beşinci kolon"un tərkib hissəsi olaraq tanınıblar. Lakin onlardan fərqli olaraq, konstruktivlik yönündə siyasət yürüdən müxalifət parityaları da var ki, onların məqsədləri dövlətin siyasi və s. cəhətdən inkişafında səmərə vermək maraqlarından ibarətdir. Seçkilərdə və s. siyasi olaylarda fəallıq göstərən bu kimi müxalifət təşkilatları, eyni zamanda, yuxarıda qeyd edilən dağıdıcı partiyalar tərəfindən təhqirlərə məruz qalır, guya ki, onların müxalifət düşərgəsinə xəyanət etdikləri iddia olunur. Halbuki xalqa, dövlətə xəyanət edənlər də ittihamçılar və onların "liderləri"dir.

### Qulamhüseyn Əlibəyli: "Görüşlərdən imtina etmək düzgün olmayan yoldur"

Məsələn, "Aydınlar" partiyasının sədri Qulamhüseyn Əlibəyli mətbuata açıqlamasında bildirib ki, son görüşlər siyasi partiyalarla yeni münasibətlərin qurulmasının başlanğıcı kimi qiymətləndirilə bilər. Onun fikrincə, dialoq mühiti gələcək fəaliyyət baxımından, münbit addımdır və hər hansı müxalifət partiyası istər tanışlıq, istərsə də digər cəhətdən dialoqdan yayınırsa, bu, səhv qərardır. "Müəyyən partiyalar görüşdən imtina edə bilər. Amma bu, düzgün olmayan yoldur. Çünki kontaktlar yaranmalıdır, biz bu dövlətdə yaşayırıq" deyə müxalifət partiyasının sədri bildirib. Digər müxalifətçi partiya təmsilçisi - "Ağ Partiya"nın sədri Tural Abbaslı da hesab edir ki, bu addımlar pozitivdir. Belə ki, parlamentdə müxalifət partiyalarının təmsilçiliyi, eləcə də, müəyyən parlamentdaxili qurumlarda fəaliyyətləri də iqtidar-müxalifət arasında yeni münasibətlərin qurulması ilə bağlı anonsudur.

***Rövşən RƏSULOV***

# Hərbi əməliyyatlar zamanı həkim yaralını ancaq özünün xəstəsi kimi görməlidir

***Hərbi əməliyyatlarda, bilavasitə iştirak etməyən və ya sıradan çıxmış şəxslərlə insani rəftar edilməlidir. Bu onu göstərir ki, tibbi heyət himayədə olan şəxslərə hörmətlə yanaşmaqla yanaşı, həm də onlara yardım göstərməlidir. Onlara humanist rəftar isə tələb edir ki, bu şəxslərlə vahid bəşər birliyinin üzvü kimi davranmaq lazımdır. Qayğı, tibbi mülahizələrdən başqa, heç bir fərq qoyulmadan göstərilməlidir. Heç bir ayrı-seçkilik qoyulmadan yardım göstərilməsi Qırmızı Xaç Hərakatının əsas prinsiplərindən biri olan qərəzsizlik prinsipinin tələbidir.***

Bu prinsip irqi, siyasi, əqidə, dini etiqad, fəlsəfi inam, cins, mənşə, dil, milli, sosial, əmlak və ya hər hansı oxşar kriteriyalara əsasən, rəftarda fərq qoyulmamasını tələb edir. Tibbi yardımda növbəlilik, müstəsna olaraq, tibbi tələbata əsasən müəyyənləşdirilməlidir. Başqa sözlə, həkim yaralını ancaq özünün xəstəsi kimi görməlidir. Ona özgəninki və ya düşmən kimi baxmamalıdır. Fərq qoymamaq, o demək deyil ki, uşaq, xəstə və qocalara münasibət başqalarınkından fərqlənməməlidir. Bu prinsip təcrübədə tətbiq olunarkən, sağlam düşüncə ilə hərəkət etmək lazımdır. Konvensiyanın mühafizəsi altında olan şəxsin sağlamlığının tələb etmədiyi hər hansı tibbi proseduraya, həmçinin, tibbi-bioloji və ya digər elmi təcrübəyə məruz qoymaq qadağandır. Normal şəraitdə tibbin inkişafının təmin edilməsində yeni müalicə metodlarının və dərmanların adamlar üzrində yoxlanmaq təcrübəsi mühüm rol oynayır. Onlar yalnız bütün ehtiyat tədbirləri görməklə və həmin adamlara bütün təminatlar verməklə aparılmalıdır. Sözsüz ki, bü cür təcrübələr aparılan şəxslər qabaqcadan buna razılıq verməlidirlər. Lakin Konvensiyanın mühafizəsi altında olan şəxsin, bir qayda olaraq, düşmənin hakimiyyəti altında olduğunu nəzərə alaraq, onların könüllü razılıq verməsinə inanmaq çətindir. Ona görə də, həmin şəxslər üzərində təcrübə aparılması qadağan edilmişdir. Bu qaydanın tətbiqi himayədə olan şəxslərin arzusundan asılı deyildir: Onlar istəsələr belə, bu cür əməliyyatlarda iştirak edə bilməzlər. Çünki bu beynəlxalq humanitar hüququn pozulması hesab olunur. Konvesiyada iki istisna nəzərdə tutulur: köçürmə üçün qan və dəri verilməsi. Bu, yalnız donorun razılığı və müstəsna olaraq, tibbi məqsədlə həyata keçirilməlidir.

Bu istisnalara onunla haqq qazandırılır ki, qan və dəri verilməsi silahlı münaqişə vaxtı başqa yaralı və xəstələrin həyatının qorunması üçün faydalı ola bilər.

Qeyd etmək lazımdır ki, qəsdən fəaliyyətsizlik və ya ciddi laqeydlik beynəlxalq humanitar hüququn pozulmasını təşkil edir. Buna tibbi yardıma ehtiyacı olan şəxsləri tibbi yardımsız qoymaq və ya qəsdən yaralı və ya xəstəni yoluxucu xəstəliyə tutula biləcək şəraitdə qoymaq misal ola bilər. Bundan başqa, tibbi heyət yaralı və xəstənin ləyaqətinin təhqir olunmaqdan qorumalı, onları kütlənin marağına çevrilməsinə imkan verməməlidir. Onlar hər cür hədə-qorxudan mühafizə olunmalıdır. Xəstənin müalicəsinə başlamamışdan əvvəl, həkim xəstənin bu barədə razılığını almalıdır. Belə ki, xəstə və yaralı zəruri hesab etmədikdə, cərrahiyyə əməliyyatından imtina edə bilər. Xəstə və yaralı bu cür razılıq vermək iqtidarında deyilsə, bu razılıq tələb olunmur. Tibbi heyətin mühafizəsi ilə əlaqədar tibbi daşımalar da mühüm əhəmiyyət kəsb edir. "Tibbi daşımalar" dedikdə, yaralı, xəstə, gəmi qəzalarına düşənlərin, həmçinin, tibbi və ruhani heyətinin tibbi avadanlıq və ehtiyatlann quruda, suda və havada nəql edilməsi başa düşülür.

"Tibbi nəqliyyat vasitələri" dedikdə, münaqişədə olan tərəfin səlahiyyətli hakimiyyət orqanının nəzarəti altında olan, yalnız tibbi daşımalar üçün nəzərdə tutulan hərbi və ya mülki, daimi və ya müvəqqəti daşıma vasitələri nəzərdə tutulur. Tibbi nəqliyyat vasitəsi qeyri-müəyyən müddətə, müstəsna olaraq, tibbi məqsəd üçün nəzərdə tutulubsa, "daimi" tibbi nəqliyyat vasitəsi hesab edilir. Əgər tibbi nəqliyyat vasitəsi, müstəsna olaraq, tibbi məqsədlərlə məhdud zaman üçün cəlb edilibsə, onda həmin müddət ərzində, "müvəqqəti" tibbi nəqliyyat vasitəsi hesab edilir. Tibbi nəqliyyat vasitəsi daimi və ya müvəqqəti xarakterindən asılı olmayaraq, Konvensiyanın himayəsi altında olduğuna görə, müstəsna olaraq, tibbi məqsədlər üçün istifadə olunmalıdır. Həm yaralı, həm də sağlam əsgəri və ya silah daşıyan avtomobil dəstəsi himayəçilikdən məhrum olur. Lakin yaralı və xəstələrdən götürülmüş, lakin müvəqqəti olaraq, təhvil verilməmiş silahların aparılmasına icazə verilir. Tibbi nəqliyyat vasitəsi hörmət və mühafizədən istifadə edir. Onlara hörmətlə yanaşmaq o deməkdir ki, həmin nəqliyyat vasitələrinə hücum etmək, onları sıradan çıxarmaq, hərəkətinə mane olmaq, yəni onların qarşısında qoyulmuş vəzifənin yerinə yetirilməsinə maneçilik törətmək olmaz. Mühafizə himayəçiliyin fəal surətdə həyata keçirilməsini nəzərdə tutur. Tibbi heyətlə bağlı anlayışlardın biri də tibbi birləşmələrdir. "Tibbi birləşmə" dedikdə, tibbi məqsədlər, məhz yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların axtarılması, toplanması, daşınması, diaqnoz qoyulması və ya müalicəsi, o cümlədən, ilk tibbi yardım göstərilməsi, habelə, xəstəliklərin profilaktikası üçün yaradılmış həm hərbi, həm də mülki müəssisələr və digər birləşmələr nəzərdə tutulur. Həmin termin, məsələn, xəstəxanaları və bu kimi digər bölmələri, qanköçürmə mərkəzlərini, tibbi profilaktika mərkəzlərini və ya müəssisələrini və həmin birləşmələrin tibbi və tibbi-əczaçılıq əmlakının saxlandığı ambarları əhatə edir. Tibbi birləşmələr stasionar və ya səyyar, daimi və ya müvəqqəti ola bilər.

Tibbi birləşmə hər bir vaxt himayə və mühafizədən istifadə edir. Bu, o deməkdir ki, onlara hücum etmək qadağan olunmaqla yanaşı, həm də onlara öz vəzifələrini yerinə yetirmək üçün imkan verilməlidir. Yəni tibbi birləşmələrin dərmanlar və ləvazimatlarla təchiz olunması, hər hansı banditizm aktlarından qorunması təmin edilməlidir. Digər tərəfdən, tibbi birləşmələrin yerləşdiyi əraziyə düşmən daxil olduqda, onları düşməndən müdafiə etmək olmaz. Bu cür müdafiə düşmənçilik hərəkəti kimi qiymətləndirilir və həmin birləşməni mühafizə hüququndan məhrum edir. Düşmənin vəzifəsi tibbi birləşməyə hörmət göstərməkdən ibarətdir. Bu, o deməkdir ki, düşmən belə tibbi birləşmələri zəbt edə bilməz, yaralı və xəstələrə, tibbi heyətə hər cür hörmət göstərməlidir. Həmçinin, tibbi avadanlığı zədələmək və tibbi birləşmədən təyinatına uyğun olmadan istifadə etmək olmaz. Aşağıdakılar düşmənə ziyan vuran hərəkətlər sayılmır:

1) tibbi birləşmələrin heyətində özünümüdafiə və ya himayəsində olan yaralıları və xəstələri müdafiə üçün yüngül şəxsi silah olması;

2) tibbi birləşmələrin keşik dəstəsi, gözətçilər və ya kanvoy tərəfindən qorunması;

3) tibbi birləşmələrdə yaralılardan və xəstələrdən alınmış, lakin hələ müvafiq xidmətə təhvil verilməmiş əl silahının və döyüş sursatının aşkar edilməsi;

4) silahlı qüvvələrin üzvlərinin və ya başqa döyüşçülərin tibbi səbəblər üzündən tibbi birləşmədə olması.

Tibbi birləşmə iki şərtə cavab verdikdə, hörmət və mühafizədən istifadə edir:

1) Tibbi birləşmə (BQXK-nin idarəçiliyi altmda olanlar istisna olmaqla) silahlı qüvvələrin tibbi xidmətinə aid olmalıdır. Mülki-tibbi birləşmə isə münaqişədə olan tərəfin səlahiyyətli hakimiyyət orqanları tərəfindən tanınmalıdır. Hər bir halda, münaqişədə olan dövlət, hakimiyyəti altında olan tibbi birləşmənin təyinatına uyğun olaraq, fəaliyyət göstərməsi üçün tədbir görməlidir və ona görə cavabdehlik daşıyır.

2) Tibbi birləşmələr düşmənə ziyan vuran hərəkətlər törətməməlidir. Məsələn, tibbi birləşmələrdən müşahidə məntəqəsi kimi və ya sağlam döyüşçüləri və hərbi sursatı orada saxlamaq üçün istifadə etmək olmaz. Əgər tibbi birləşmə düşmənə ziyan vuran hərəkətlər törədirsə, rəqib imkan dərəcəsində tibbi birləşməyə hücum etməzdən əvvəl, xəbərdarlıq etməlidir. Hər bir halda, yaralı və xəstələri xilas etməyə cəhd etmək lazımdır. Hərbi əsirlər və nəzarət altında saxlanan şəxslərlə işləməli olan tibbi işçiləri aşağıdakı kateqoriyalara ayırmaq olar:

- münaqişədə iştirak edən tərəfə məxsus olan hərbi əsirlərə xidmət üçün düşmən tərəfdən tutulmuş tibbi heyət;
- digər nəzarət altında saxlanan şəxslərə qayğı göstərmək üçün düşmən tərəfdən tutulmuş və nəzarət altında saxlanan şəxslərdən olan tibbi heyət;
- hərbi əsir və nəzarət altında saxlanan şəxslərin hakimiyyəti altında olduqları münaqişədə iştirak edən tərəfə məxsus olan və həmin tərəfin əmri və ya xahişi ilə onlara yardım göstərən hərbi və ya mülki-tibbi heyət;
- BQXK-nin tibbi heyəti.

Tibbi heyət hərbi əsir və nəzarət altında saxlanan şəxslərin hüquqlarını bilməli və bu hüquqlar pozulduqda, səlahiyyətli hakimiyyət oqranlarından onlara riayət edilməsini tələb etməlidir. Əsirlikdə və nəzarət altında saxlanılan tibbi heyət düşərgənin daxili intizamına tabe olmalıdır. Onun düşərgədəki sanitar vəziyyəti barədə hər hansı xəbərdarlığı Konvensiya müddəalarına əsasən, hakimiyyətdə olanlara çatdırılır. Tibbi heyət, heç bir halda, beynəbtalq humanitar hüququn onlara verdiyi hüquqlardan imtina edə bilməz. Bu müddəanın məqsədi onların tam müdafiəsini təmin edilməsi üçün zəruridir. Bu qəti qadağanedici norma tibbi heyətə öz hüquqlarından imtina etmək üçün təzyiq göstərilməsi imkanının aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir.

Bu prinsip irqi, siyasi, əqidə, dini etiqad, fəlsəfi inam, cins, mənşə, dil, milli, sosial, əmlak və ya hər hansı oxşar kriteriyalara əsasən, rəftarda fərq qoyulmamasını tələb edir. Tibbi yardımda növbəlilik, müstəsna olaraq, tibbi tələbata əsasən müəyyənləşdirilməlidir. Başqa sözlə, həkim yaralını ancaq özünün xəstəsi kimi görməlidir. Ona özgəninki və ya düşmən kimi baxmamalıdır. Fərq qoymamaq, o demək deyil ki, uşaq, xəstə və qocalara münasibət başqalarınkından fərqlənməməlidir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

20 mart


## Məşhur aktrisa koronavirusdan sağaldı: "Vitamin qəbul edirəm, sarımsaq yeyirəm və..."



***"Uşaqlar, bu gün özümü daha yaxşı hiss edirəm! Temperatur düşüb. Londondayam! Koronavirusa yoluxduğumu necə bilirəm? Xəstəxanada testdən keçdim, cavab müsbət oldu. Mənə hansı müalicəni təyin etdilər? HEÇ BİR! Yalnızca yüksək temperaturda və ağrılar şiddətləndə parasetamol içməyi tapşırdılar, bunu da etdim. İmmuniteti dəstəkləmək üçün aşağıdakı vitaminləri qəbul edirəm: Vitamin C, E, D, B5, kurkumin, sink. Diqqət! Bu vitaminlər koronavirusu müalicə etmir, immun sisteminə yalnız viruslar və infeksiya ilə mübarizədə kömək edə bilərlər. Bütün xəstələrə şəfa diləyirəm".***



Bu sözləri bir həftə əvvəl koronavirus diaqnozu qoyulan 40 yaşlı aktrisa Olqa Kurilenko instaqramda yazıb. O, izləyicilərinə bu gün sağaldığını bildirib. Ukrayna əsilli film ulduzu sosial şəbəkədə ən çox verilən sualları cavablandırıb:

"Vitamin qəbul edir, sarımsaq yeyir və limonlu su içirəm".

Qeyd edək ki, aktrisa diaqnozunu bilən kimi dərhal karantində qalıb və evdən çıxmayıb. Kurilenko əvvəlki açıqlamasında bildirmişdi ki, Böyük Britaniyada koronavirusa qarşı müalicə yoxdur: "Ağırlaşma müşahidə olunmazsa, xəstəlik yüngül formada davam edərsə, sadəcə immun sisteminin infeksiyanın öhdəsindən gələcəyini gözləmək lazımdır. Bununla yanaşı, immunitet dəstəklənməlidir: vitaminlərlə zəngin olan qidalar yeyin, çatışmazlıqları bərpa edin, məşq edin, kifayət qədər yatın və sağlam həyat tərzi keçirin"./publika.az

## Ronaldonun xanımı karantinə məhəl qoymadı

***"Yuventus"un ulduz futbolçusu Kriştianu Ronaldonun xanımı Corcina Rodriges koronavirusla bağlı elan edilmiş karantin qaydalarına riayət etməyib.***

"La Gazetta Della Sport" xəbər verir ki, onun alış-verişə çıxmağıazarkeşlərin qəzəblənməsinə səbəb olub. "Yuventus" azarkeşləri modelin addımını qınayıblar. Onlar Rodriqesin qaydaları pozması ilə Ronaldonun həyatını təhlükəyə atdığını düşünürlər.



## CAS "Milan"ın futbolçusunu 16,5 milyon avro cərimələyib

İdman Arbitraj Məhkəməsi (CAS) "Milan"ın hücumçusu Rafael Leaonu cəzalandırıb. Buna səbəb hücumçunun sabiq klubu "Sportinq"i icazəsiz tərk etməsi olub.

21 yaşlı forvard 2018-ci ildə müqaviləsini birtərəfli şəkildə ləğv edərək, "Lill" klubu ilə azad agent statusunda sözləşmə imzalayıb. "Sportinq" 45 milyon avro təzminat tələb etsə də, CAS portuqaliyalıya 16,5 milyon avroluq cəza kəsib. Oyunçunun bu qərara etiraz etmək haqqı var. "Sportinq" isə azarkeşlər tərəfindən psixoloji təzyiqlər və təhqirlərə görə, futbolçuya 40 min avro cərimə ödəməli olacaq. Qeyd edək ki, Rafael Leao ötən il 35 milyon avroya "Lill"dən "Milan"a keçib.

## BƏT: Dünyada 25 milyon insan iş yerini itirə bilər

Beynəlxalq Əmək Təşkilatı yeni növ koronavirusun (Covid-19) yayılması səbəbindən dünyada 25 milyon insanın iş yerlərini itirə biləcəyini açıqlayıb. SİA-nın xarici KİV-lərə istinadən verdiyi xəbərə görə, dünyada sürətlə yayılan Covid-19 üçün Cenevrədə yerləşən Birləşmiş Millətlər Təşkilatının BƏT agentliyi tərəfindən yayımlanan yeni hesabatda, pandemiya xəstəliyinin qlobal iş dünyasına təsiri vurğulanıb.

Hesabatda "Covid-19"-un milyonlarla insanın işsizliyə, məşğulluq çatışmazlığına və yoxsulluq səviyyəsinə qaldırılmasına işarə olunub, baş vermiş hadisələrə qarşı sabit, əlaqələndirilmiş və təxirəsalınmaz reaksiya verilməsini tələb edib.



Məlumatda bildirilir ki, "Covid-19 dünya səviyyəsində təxminən 25 milyon insanın işsiz qalmasına səbəb ola bilər". Ancaq 2008/2009 qlobal maliyyə böhranında olduğu kimi, əgər beynəlxalq səviyyədə əlaqələndirilmiş cavab siyasətini (epidemiyaya qarşı) görə bilsək, qlobal işsizliyə təsir xeyli aşağı ola bilər".

## Məşhur müğənni imicini dəyişdi

***Ceylan imicini dəyişib. Türkiyəli müğənni yutub kanalının tanıtım fotoları üçün Selim Akarın obyektivinə poz verib. Koronavirus səbəbilə konsertlərini təxirə salan ulduz türkü və arabesk tərzdə olan 10 köhnə mahnısını kanalı üçün yenidən ifa edəcək.***

Müğənninin saç stili də diqqətdən yayınmayıb. Ceylan "daim axtarışlar məni xoşbəxt edir" deyə bildirib.



## Yaz fəslinin Azərbaycana gəlişi vaxtı açıqlanıb

2020-ci ildə yaz fəsli Azərbaycana martın 20-si saat 07:49:36-da daxil olacaq. Bu barədə AZƏRTAC-a AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib. Bildirilib ki, bu zaman gecə ilə gündüz bərabərləşəcək. Günəş ekliptika üzrə hərəkət edərək cənub yarımkürəsindən şimal yarımkürəsinə keçəcək və həmin andan şimal yarımkürəsində yaz fəsli başlayacaq.



## ŞOK: İranda hər 10 dəqiqədə 1 nəfər koronavirusdan ölür!

İranda hər 10 dəqiqədə 1 nəfər koronavirusdan ölür, hər saatda isə 50 nəfər virusa yoluxur. Bu barədə İranın Səhiyyə Nazirliyinin mətbuat katibi Kiyanuş Cahanpur özünün "Twitter" səhifəsində yazıb. Bu günə (19 mart) olan məlumata görə, İranda yoluxanların sayı 17 min 361, ölənlərin sayı 1135, sağalanların sayı isə 5 min 710 nəfərdir. İranda virusa qarşı mübarizə tədbirləri davam edir. Bir həftə əvvəl Semnan vilayətində koronavirus diaqnozu ilə xəstəxanaya yerləşdirilən 103 yaşlı qadın sağalaraq evə buraxılıb. Bu qadın İranda koronavirusdan sağalan ən yaşlı insandır.




Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600